

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Evdən yox, eldən gedən insan - "Zərifə Əliyeva-100"



8

# Azərbaycan-Qazaxıstan dostluğu: Türk Birliyi möhkəmlənir!




2

SƏS

№ 061 (6744)

11 aprel 2023-cü il.
Qiyməti 60 qəpik

# Beşdən böyük dünya və TÜRKİYƏ



6

### YAP Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Əli Həsənovun 75 illik yubileyi münasibətilə görüş keçirilib



5

### İsrail-İranla irimiqyaslı müharibə astanasında: nə baş verir?



13

### Ətin qiyməti niyə bahalaşır?



7



15

### "Xaricdən idarə olunan erməni dövlətçiliyi çürük vəziyyətdədir"

### Ağ günlü, ağ əppəkli olmaq



13

# Azərbaycan-Qazaxıstan dostluğu: Türk Birliyi möhkəmlənir!

**Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra region və dünya dövlətləri, beynəlxalq təşkilatlarla əlaqələri daha da genişləndirdi, bir sıra qurumlarla yeni əlaqələr yaratdı. O cümlədən, Azərbaycanın türkdilli ölkələrlə, xalqlarla yaxınlaşması, eyni genetik, tarixi köklərə malik olduğumuz dövlətlərlə daha da yaxından təmas qurması üçün müxtəlif siyasi-iqtisadi, mədəni-humanitar platformalar meydana gəldi, iş birliyi rəsmiləşdirən müqavilələr imzalandı. Türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradıldı. Naxçıvanda qəbul edilən qərarlarla türk dünyasının birliyi daha da möhkəmlənib və yeni inkişaf mərhələsinə yüksəlib.**

Ölkələr arasında əməkdaşlıq daha da genişlənib. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etdiyi dövrdə türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa öz töhfəsini verib. Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri, Astanada dövlət başçılarının geniş tərkibdə görüşü və Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması bu əlaqələrin davamlığına və möhkəm təməl üzərində qurulmasına söykənir. Daha sonra Azərbaycan



## Azərbaycan Prezidenti: “Qazaxıstanla qardaşlıq münasibətləri əcdadlarımızın göstərişi, həyati zərurətdir”



Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Qazaxıstan ilə qardaşlıq münasibətləri əcdadlarımızın göstərişi, eləcə də həyati zərurətdir. Dövlətimizin başçısı qeyd edib: ”Çünki Xəzər regionunda, Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda baş verən proseslər bizə regional təhlükəsizliklə bağlı məsələlərdən başlamış nəqliyyat, logistika, energetika, humanitar əməkdaşlıq, ekologiya ilə bağlı məsələlərə qədər bütün istiqamətlər üzrə əməkdaşlığı möhkəmləndirməyi diktə edir. Xüsusən ona görə ki, təəssüflər olsun, Xəzərin həm sizə, həm də bizə aid olan sahillərində dənizin sürətlə dayazlaşmasını müşahidə edirik. Ölkələrimiz arasında müttəfiqlik münasibətləri bizim qarşılıqlı fəaliyyətimizin gələcək inkişafının möhkəm təməlidir. Bu gün biz bu təməli konkret məzmunla zənginləşdiririk və ötən ilin avqust ayında Bakıda qəbul edilmiş qərarlar bu gün artıq reallaşır. O cümlədən Qazaxıstan neftinin Azərbaycandan keçməklə tranzitinin başlanması, Orta Dəhlizin imkanlarını tam həcmdə səfərbər etmək üçün ölkələrimizin nəqliyyat-logistika infrastrukturlarının birləşdirilməsi üzrə ciddi işin başlanması barədə qərarlar”, - deyə dövlətimizin başçısı bildirib. Dövlətimizin başçısı bildirib ki, biz həm də xüsusən ölkələrimizdən birinin üzv olduğu təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu, uzun illər boyu bizim münasibətlərin səmimi xarakterini nümayiş etdirir. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, bütün məsələlərə dair bir-birimizi həmişə dəstəkləyirik və dəstəkləyəcəyik.

## Prezident: “Müttəfiqlik münasibətləri qarşılıqlı fəaliyyətimizin gələcək inkişafının möhkəm təməlidir”

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə açıqlamasında qeyd edib ki, bizim ortaq səylərimiz sayəsində son illərdə Qazaxıstan ilə Azərbaycan arasında münasibətlər daha açıq və hərtərəfli xarakter kəsb edib. Siyasi, ticari-iqtisadi, mədəni-humanitar əməkdaşlıq fəallaşıb. Yarım ildən bir qədər çox əvvəl imzalanan sənədlərin, bütün bu razılaşmaların ardıcıl olaraq həyata keçirildiyini vurğulayan Kasım-Jomart Tokayev deyib: ”Bu gün imzalanmış bir sıra yeni sazişlər bizim çoxşaxəli tərəfdaşlığımıza əlavə impuls verəcək”.

Qazaxıstan Prezidenti qeyd edib ki, Qazaxıstan və Azərbaycan ticari-iqtisadi sahədə qarşılıqlı faydalı əsasda əməkdaşlıq edir. O bildirib ki, ötən ilin yekunlarına əsasən, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi yarım milyard dollara yaxınlaşıb. Lakin, əlbəttə ki, ticari-iqtisadi tərəfdaşlığın potensialı əsla tükənməyib. ”Biz ixrac-idxal mallarının nomenklaturunun daha da genişləndirilməsi üçün təsirli tədbirlər görmək barədə razılığa gəldik”, - deyə Tokayev vurğulayıb.

Dünən Astanada Heydər Əliyev küçəsinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mərasimdə iştirak ediblər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Heydər Əliyev küçəsində yerləşən Botanika bağında ağac əkiblər. Həmçinin Prezident İlham Əliyev və Qazaxıstan Kasım-Jomart Tokayev Astana Beynəlxalq Maliyyə Mərkəzində olublar.

Hər kəsə məlumdur ki, 2020-ci il türk dünyası məhsuldar, Zəfər ili olaraq yadda qaldı. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir. Azərbaycan tərəfi məsələnin sülh yolu, danışıqlar masasında həll edilməsi istiqamətində addımlar atmış olsa da, Ermənistan faktiki olaraq danışıqlardan imtina etmiş və ölkəmiz döyüş meydanında öz sözünü deyərək Zəfər qazandı.

Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Məlumdur ki, 44 günlük Vətən müharibəsi dövründə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Ardı Səh. 3

# Azərbaycan-Qazaxıstan dostluğu: Türk Birliyi möhkəmlənir!




Əvvəli Səh.2

Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə edərək Türkiyənin Azərbaycanın yanında olmasını ifadə etdi. Türk Şurası sentyabrın 28-də Azərbaycana dəstək xarakterli açıqlama verdi. Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü dünyada türk birliyinin daha da güclənməsinə şərait yaradır. Məlumdur ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü bir sıra əlamətdar hadisələr, qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır.

## ORTAQ TARİXƏ VƏ KÖKƏ MALİK TÜRK DÜNYASI

Azərbaycan və Qazaxıstanı çoxəsirlik qardaşlıq münasibətləri birləşdirir. Azərbaycan Mərkəzi və Orta Asiya ölkələri ilə də sıx siyasi və iqtisadi əlaqələrə malikdir. Xalqlarımızın dil, din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda ortaq tarixə malik olması bu əlaqələrə təsir göstərən mühüm amillərdən biridir. Ölkəmizin Mərkəzi və Orta Asiyanın türkdilli dövlətləri arasındakı münasibətləri yüksələn xətlə inkişaf etməsinə Azərbaycanın Qazaxıstanla olan əlaqələrini misal göstərmək olar. Azərbaycan-Qazaxıstan əlaqələrinin bütün sahələrdə uğurla inkişafı, iki ölkə arasında imzalanan sənədlər strateji münasibətlərin və ölkələrimiz arasında əməkdaşlığın ildən-ilə güclənməsinə gətirib çıxarır. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il avqustun 30-da yaradılıb. 1993-cü ilin yanvarında Qazaxıstanın Azərbaycanda, 2004-cü ilin martında isə Azərbaycanın bu ölkədə səfirlikləri fəaliyyətə başlayıb. 2008-ci ilin sentyabrından isə Azərbaycanın Qazaxıstanın Aktau şəhərində konsulluğu fəaliyyət göstərir.

Ölkələrimiz Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avratlantik Tərəfdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKPA, TÜRKSOY kimi beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edir.



## AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA MÜNASİBƏTLƏR ÖLKƏMİZİN XARİCİ SİYASƏTİNDƏ PRİORİTET İSTİQAMƏTLƏRDƏNDİR



Prezident Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbəri kimi Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə ilk görüşü 1994-cü il oktyabrın 19-da türk dövlətləri başçılarının ikinci Zirvə görüşündə baş tutub. Həmin görüşdə prezidentlər iki ölkə arasında münasibətlərin inkişafı perspektivlərini müzakirə ediblər. Görüş zamanı Azərbaycan-Qazaxıstan münasibətlərinin həm türk dövlətlərinin münasibətləri çərçivəsində, həm də ikitərəfli formatda inkişaf etdirmək barədə qərar qəbul edilib. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev isə Qazaxıstana ilk rəsmi səfərini 2004-cü ildə edib. Səfər zamanı Prezident İlham Əliyev və Prezident Nursultan Nazarbayev iqtisadi münasibətlər, xüsusilə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi sahəsində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparıblar.



2006-cı ildə "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilə imzalanıb.

İki ölkə arasında yaxın dostluq münasibətləri 2004-cü il martın 1-də Astanada imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2005-ci il mayın 24-də Bakıda imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" ilə daha da möhkəmləndirilib.

Ötən il Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin ölkəmizə səfəri və bu səfər çərçivəsində müxtəlif sahələr üzrə 20-dən çox sənədin imzalanması Azərbaycan və Qazaxıstan arasındakı əlaqələrin yüksək səviyyəyə çatmasına xidmət edir. Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının "Altın kıran" - "Qızıl qartal" ali ordeni ilə təltif edilməsi xalqlarımızın dostluğunun və qardaşlığının daha bir təsdiqidir. Eyni zamanda, ölkə rəhbərinin Azərbaycan-Qazaxıstan münasibətlərinin möhkəmlənməsi üçün gördüyü işlərə verilən yüksək qiymətdir. Təqdim olunan ali mükafatı Azərbaycan xalqına hörmət əlaməti kimi dəyərləndirən Prezident İlham Əliyev əminliklə qeyd etmişdi ki, Qazaxıstan ilə münasibətlər bundan sonra da Azərbaycanın xarici siyasətində prioritet olacaq.

Vurğulamaq yerinə düşər ki, Qazaxıstanın Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində iştirakı iki ölkə arasında dostluğun təzahürüdür. Qazaxıstan tərəfindən Füzuli rayonunda tikiləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsinin təqdimatı, Şuşa ilə Türküstanın qardaşlaşması xalqlarımız arasında dostluğu və qardaşlığı daha da möhkəmləndirəcək. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Qazaxıstan xalqları arasında dostluq və qardaşlıq münasibətləri Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan-Gürcüstan əməkdaşlığı yeni imkanlar yaradır"



**"Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri və səfər zamanı dövlətimizin rəhbəri cənab İlham Əliyevlə Azərbaycan ilə Gürcüstan arasında humanitar, mədəniyyət, təhsil, müdafiə sənayesi, hərbi, təhlükəsizlik, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığa dair məsələlərin müzakirə edilməsi Cənubi Qafqazda sülhün, əminamanlığın təmin olunması baxımından çox əhəmiyyətlidir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**

Komitə sədri vurğulayıb ki, Azərbaycan-Gürcüstan dostluğu möhkəmdir və qarşılıqlı əməkdaşlıq əlaqələri günbəgün genişləndirilir, xüsusilə neft, qaz boru kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan ərazisindən keçməsi və təhlükəsizliyin təmin edilməsi ölkələrimizə fayda verməkdədir.

"Azərbaycan, Gürcüstan, Rumuniya, və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması iki qonşu dövlətin iş birliyində vahid mövqedən çıxış etmələrinin ifadəsidir. Enerji layihələrinin birgə reallaşdırılması əlbəttə ki, dövlətlərin milli maraqlarına uyğundur və bu gələcək əməkdaşlıq üçün geniş imkanlar yaradır.

Mətbuata verilən bəyanatda cənab İlham Əliyev bildirmişdir ki, "Təbii ki, Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir, bu rol getdikcə artır. Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir. Azərbaycan təbii qazının Avropa istiqamətinə ixracı ildən-ilə artmaqdadır. Bütövlükdə bu il Azərbaycan dünya bazarına 24,5 milyard kubmetr qaz ixrac edəcək və bu rəqəm ildən-ilə artır". Azərbaycanın qaz ixracına, bir çox mühüm layihələrin həyata keçirilməsinə Gürcüstan tərəfindən dəstək verilməsi iki ölkə arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsinə möhkəm zəmin yaradır və əməkdaşlığın genişləndirilməsi gələcək inkişaf üçün yollar açmaqdadır", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***



## Türkiyədə prezident seçkilərindən gözləntilər nədir?

"Türkiyədə prezident seçkilərində seçim tarixi getdikdə vacib addımlardan keçir. Dünəndən bəri də bütün partiyalar millət vəkili namizədlərini Yüksək Seçki Şurasına təq-



dim ediblər və dörd prezidentliyə namizəd olan şəxslərin də adı bəllidir". Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin Ərzurum şəhərindən olan sabiq deputat, professor Mustafa İlıcalı deyib.

Onun sözlərinə görə, Rəcəb Tayyib Ərdoğan hər gün müxtəlif fəaiyyət içərisindədir: "Cənab Prezidentimiz ötən gün mənim də iştirak etdiyim Başakşəhər metrosunun açılışını etdi. Dünən də prezident Rəcəb Tayyib Ərdoğan Pendikdə tamamlanan 168 layihənin kollektiv açılış mərasimində iştirak etdi. Bu gün isə ən önəmli bir savaş gəmisinin Dəniz Qüvvələrinə təslimi mərasiminə qatılacaq. Bundan əlavə Salma sənaye ilə bağlı vacib bir mərasim olacaq. Yəni, Prezidentimiz bir tərəfdən hər gün işləri icra etdirir, digər tərəfdən də zəlzələdən əziyyət çəkənlərin problemlərini həll edir".

Mustafa İlıcalı sözlərinə belə davam edib: "Altılı İttifaq"ı dəstəkləyəcək Xalqların Demokratik Partiyası ilə bağlı açıqlama və narahatlıqlar yaxınlaşan seçkilərdə Ədalət və İnkişaf Partiyasının və cənab Rəcəp Tayyib Ərdoğanın birinci turda qalib gələcəyinə inanıram".

***Ayşən Vəli***

# "Prezident Ərdoğanın yürütdüyü siyasət Türkiyənin indiki inkişafına çatmasında müstəsna rol oynayıb"

**Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ötən illər ərzində Türkiyənin dünyadakı həm siyasi, həm iqtisadi, həm də hərbi gücü sürətlə artıb. Türkiyə artıq qlobal siyasətə təsir edən, münaqişələrin həllində mövqe ortaya qoyan dövlətə çevrilib. Bu gün Türkiyə öz regionunda, eyni zamanda, dünyada söz sahibi olan ölkələrdəndir.**

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova bildirib. Deputat qeyd edib ki, Türkiyə hərb sənayesində inqilabi uğurlara imza atıb. Bu gün Türkiyə istehsalı olan pilotsuz uçuş aparat-



ları bütün dünyanın diqqət mərkəzindədir.

"Əlbəttə, Türkiyənin inkişafı çoxşaxəlidir, qardaş ölkənin iqtisadi inkişafının sürəti də diqqətçəkəndir. Türkiyə Statistika Təşkilatının məlumatına görə, ölkə iqtisadiyyatı 2021-ci ildə 11 faiz, ötən ilin son rübündə isə 9,1 faiz artıb. Prezident Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi uğurlu iqtisadi siyasət Türkiyənin bu inkişaf tempinə çatmasında müstəsna rol oynayıb", - deyə S.Mikayılova vurğulayıb. Son günlər Azərbaycan xalqının qardaş Türkiyənin daha bir uğuruna şahidlik etdiyini söyləyən deputat deyib: "Türkiyədə avtomobil sənayesində yeni dövrün başlanğıcı qoyuldu. Artıq Türkiyə dünyada elektromobil istehsalçısına çevrilmək yolunda inamla irəliləyir. Türkiyədə yerli marka olan "Togg" elektromobilinin kütləvi istehsalına start verilib. Hər zaman qardaş Türkiyəyə dəstək olan, onun uğurlarına özününkü kimi sevinən Azərbaycan bu dəfə də qardaş Türkiyənin sevincinə şərik oldu. "TOGG" elektromobilinin birincisi Prezident Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana, ikincisi isə aprelin 4-də Prezident İlham Əliyevə təqdim olundu".

Deputat, eyni zamanda, vurğulayıb ki, bütün bu uğurlar qardaş Türkiyənin daha parlaq gələcəyinin təminatçısıdır.

"Ekspertlər "Togg"un istehsalını Türkiyənin 60 illik xəyalının həyata keçirilməsi kimi qiymətləndirirlər. Artıq şahidi olduğumuz kimi, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə iqtisadi və siyasi arenada sürətlə inkişaf edir", - deyə deputat qeyd edib.

# YAP Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Əli Həsənovun 75 illik yubileyi münasibətilə görüş keçirilib







**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Əli Həsənovun 75 illik yubileyi münasibətilə görüş keçirilib.**

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edib. YAP Sədrinin müavini bildirib ki, Əli Həsənov Heydər Əliyev ideyalarına sadiq, möhkəm əqidəli və vətənpərvər şəxsiyyət kimi uzun müddət müxtəlif sahələrdə uğurlu fəaliyyət göstərərək öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib və ölkəmizin inkişafına sanballı töhfələr verib. Əli Həsənovun 2013-2021-ci illərdə Yeni Azərbaycan Partiyasının Sədr müavini kimi partiyanın təşkilatlanmasında və inkişafında xidmətlər göstərdiyini vurğulayan Tahir Budaqov qeyd edib: ”Təsadüfi deyil ki, çoxillik və məqsədyönlü fəaliyyətiniz ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ”Şöhrət” və 2-ci dərəcəli ”Vətənə xidmətə görə” ordenləri ilə təltif olunmağınız əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir”.

”Hazırda da YAP Veteranlar Şurasının üzvü kimi Ümummilli Liderin zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının, Yeni Azərbaycan Partiyasının tarixi ənənələrlə müasir çağırışların vəhdətinə və varislik prinsipinə əsaslanan siyasi dəyərlərinin gənc nəslə aşılanması istiqamətində məqsədyönlü fəaliyyətinizi uğurla davam etdirərək partiyamızın həyatında yaxından iştirak edirsiniz”,- deyən YAP Mərkəzi Aparatının rəhbəri Əli Həsənova fəaliyyətində yeni müvəffəqiyyətlər arzulayıb.

Yubilyarı təbrik edən Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədri Arif Rəhimzadə qeyd edib ki, Əli Həsənov uzun müddət müxtəlif vəzifələrdə uğurla çalışaraq ona göstərilən etimadı layiqincə doğruldub. Əli Həsənovun hazırda YAP Veteranlar Şurasının üzvü kimi səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdıran Arif Rəhimzadə yubilyara möhkəm cansağlığı və işlərində uğurlar arzulayıb.

Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Əli Həsənov Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəldən Heydər Əliyev ideyalarına daim sadiq olduğunu diqqətə çatdırıb. O, Ümummilli Liderin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən, Azərbaycanın tərəqqisində müstəsna rol oynayan Yeni Azərbaycan Partiyasının həyatında yaxından iştirak etməkdən qürur duyduğunu bildirib. Əli Həsənov bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

# “SƏS” ”Yeni Azərbaycan”ı təbrik edib

“Yeni Azərbaycan” qəzeti hər zaman olduğu kimi, bu gün də prinsipial, qətiyyətli mövqeyinə sadiq qalmaqda, habelə Azərbaycan dövlətinə, xalqımızın maraqlarına əzmkarlıqla xidmət etməklə cəmiyyətdəki yüksək nüfuzunu qoruyub-saxlayır. Bu gün 30 yaşlı ”Yeni Azərbaycan” qəzeti ölkə mətbuatında özünəməxsus yeri və əhəmiyyətli rolu ilə seçilir”. SİA xəbər verir ki, bunu ”SƏS” Media Qrupun rəhbəri Bəhruz Quliyev əməkdaşlarla birlikdə ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Həsənoğlu ilə görüşdə deyib.



”SƏS” Media Qrupun rəhbəri ”Yeni Azərbaycan” qəzetinin baş redaktoruna və kollektivə öz səmimi arzularını çatdırıb və əlavə edib ki, ”Yeni Azərbaycan” qəzeti 30 illik fəaliyyətində yalnız dövlətçiliyə, partiyanın təşkilatlanması və inkişafına xidmət edib: ”Qəzetin inkişafında başda Alqış Musayev olmaqla və illərini həsr edən bütün kollektivin xüsusi rolu var. Bu şərəfli yolda bütün kollektivə uğurlar arzu edirəm”.




Daha sonra ”SƏS” Media Qrupun xüsusi sifarişi əsasında hazırlanmış tort kəsilib və xatirə fotosu çəkilib.

Qeyd edək ki, demokratiya və plüralizm dövrümüzdə oxucularının qarşısına hər dəfə yenilikləri ilə çıxan ”Yeni Azərbaycan” qəzeti Ulu Öndər Heydər Əliyev ideologiyasını, o cümlədən, bu ideologiyanın Prezident İlham Əliyevin alternativsiz liderliyi altındakı davamını, inkişaf və tərəqqisini müxtəlif məqalələri ilə oxucu auditoriyasının diqqətinə çatdıran mətbu orqan olaraq həm də Azərbaycanın müstəqillik tarixinin salnaməsinin canlı tarixi və şahididir. Hakim Yeni Azərbaycan Partiyasının siyasi xəttini ardıcıl şəkildə təbliğ etmiş, cəmiyyətin aktual problemlərini qətiyyətlə ictimai müzakirəyə çıxarmış, vətənpərvər ziyalıların, demokratik düşüncəli insanların, ictimai-siyasi xadimlərin, elm və mədəniyyət adamlarının ardıcıl dialoq platformasına çevrilmiş ”Yeni Azərbaycan” qəzeti respublikada demokratik cəmiyyət quruculuğuna, vətəndaş həmrəyliyinin gücləndirilməsinə, siyasi mədəniyyətin inkişafına, millimənəvi dəyərlərin təbliğinə öz əhəmiyyətli töhfələrini verməkdədir və daim yeniləşən qəzet qarşısına qoyulan bütün məqsədlərinə doğru inamla addımlayır.

Bu münasibətlə biz də ”SƏS” qəzeti olaraq həmkarlarımızı səmimi qəlbdən təbrik edir, ”Yeni Azərbaycan” qəzetinin daha böyük uğurlara imza atmasını arzulayırıq. Yeni yubiley yaşın mübarək, ”Yeni Azərbaycan” qəzeti!

YENİ AZƏRBAYCAN

## ”Yeni Azərbaycan” qəzetinin kollektivinə

**Bu gün milli mətbuatımızın inkişafında özünəməxsus yeri və rolu olan ”Yeni Azərbaycan” qəzetinin ilk sayının işıq üzü görməsindən 30 il ötür.**

”Yeni Azərbaycan” qəzeti olduqca çətin və mürəkkəb dövrdə - müstəqilliyini yeni bərpa etmiş Azərbaycan üçün taleyüklü məqamda, Ermənistanın ölkəmizə təcavüzü və torpaqlarımızın işğalı şəraitində yaranmışdır. O vaxt respublikada hökm sürən xaos, tənəzzül və böhran vəziyyətində xalqın təşkilatlanması, ictimai-siyasi sabitliyin, milli həmrəyliyin təmin olunması, ölkəmizin ərazi bütövlüyünə qarşı təcavüzün qarşısının alınması və müstəqil dövlət quruculuğunun həyata keçirilməsi zərurətə çevrilmişdi. Belə bir şəraitdə cəmiyyətin qabaqcıl nümayəndələrindən ibarət bir qrup ziyalının müraciəti əsasında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış Yeni Azərbaycan Partiyası yeni, müstəqil Azərbaycan uğrunda tarixi-siyasi məsuliyyəti öz üzərinə götürmüş, real müstəqilliyin təmin olunması və dövlətçiliyin qorunması uğrunda məqsədyönlü və hərtərəfli fəaliyyət göstərməyə başlamışdı. ”Yeni Azərbaycan” qəzeti də Heydər Əliyevin lideri olduğu Yeni Azərbaycan Partiyasının ideya-siyasi xəttini, ölkədə baş verən proseslərin əsl mahiyyətini xalqa çatdırmaq, insanları milli məqsədlər ətrafında səfərbər olunmasına - sıx birləşməsinə dəstək göstərmək, vətənpərvər şəxsiyyətlərin real tribunasına çevrilmək məqsədilə 1993-cü il 10 aprel tarixində partiyanın rəsmi orqanı kimi təsis edilmişdir.

Dövlətə və dövlətçiliyə xidmət etməyi fəaliyyətinin əsas prinsipi kimi müəyyənləşdirən bu mətbu orqan Heydər Əliyevin milli maraqlara əsaslanan siyasətinin və zəngin ideyalarının ruporu, Yeni Azərbaycan Partiyasının çoxşaxəli fəaliyyətinin təbliğatçısı kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək, milli həmrəyliyə xidmət edən mütərəqqi ideoloji siyasətə ardıcıl dəstək verərək mühüm işlər görmüş, qısa zamanda böyük nüfuz qazanaraq respublikada aparıcı mətbu orqanlardan birinə çevrilmişdir. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev 2002-ci il noyabrın 26-da Yeni Azərbaycan Partiyasının yaradılmasının 10 illiyinə həsr olunmuş mərasimdə ”Yeni Azərbaycan” qəzetinin fəaliyyətini yüksək dəyərləndirmişdir.

Sağlam ictimai rəyin formalaşmasına, tarixi ənənələrimizin və milli-mənəvi dəyərlərimizin yaşadılmasına əhəmiyyətli töhfələr verən ”Yeni Azərbaycan” qəzeti bu gün də Heydər Əliyevin zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının yeni nəslə aşılanmasında, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinin, ümumxalq partiyası olan YAP-ın fəaliyyətinin təbliğində, Azərbaycan həqiqətlərinin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır, respublikanın tərəqqisi yönündə həyata keçirilən uğurlu dövlət siyasətinə ardıcıl informasiya dəstəyi göstərir. 44 günlük Vətən müharibəsi zamanı və postmüharibə dövründə reallıqları geniş ictimaiyyətə çatdıran və erməni yalanlarını ifşa edən ”Yeni Azərbaycan”, sözün əsl mənasında, vətənpərvərlik nümunəsini ortaya qoymuşdur.

İnformasiya müstəvisində dövlətin mənafelərini məharətlə qoruyan, cəmiyyəti obyektiv məlumatlarla təmin edərək ictimaiyyətin informasiya tələbatını ödəyən və doğru xəbərin ünvanına çevrilən ”Yeni Azərbaycan” qəzetinin səhifələrində müstəqillik dövrümüzün tarixi salnaməsi öz əksini tapmışdır. 30 ildir ki, dövlətimizin informasiya təhlükəsizliyinin keşiyində duran ”Yeni Azərbaycan” qəzeti bu gün dövrün çağırışlarına, tələblərinə uyğun və müasir standartlar əsasında nəşr olunur. Məzmun və tərtibat baxımından təkmilləşən qəzetin səhifələrində xəbərlərlə yanaşı, ictimai maraq doğuran aktual məsələlərə dair təhlil və araşdırma xarakterli yazılara geniş yer verilməkdədir.

Şübhə yoxdur ki, milli mətbuatımızın nümunəvi nəşrlərindən olan, ənənə ilə müasirliyin vəhdətini yaradan ”Yeni Azərbaycan” qəzeti bundan sonra da Azərbaycanın möhtəşəm nailiyyətlərinin və tarixi qələbələrinin müjdəçisi olacaq, ideoloji müstəvidə və informasiya platformasında milli maraqların müdafiəsinə dəyərli töhfələr verəcəkdir.

”Yeni Azərbaycan” qəzetinin kollektivini 30 illik yubiley münasibətilə səmimi-qəlbdən təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı***
***10 aprel 2023-cü il***

# Beşdən böyük dünya və TÜRKİYƏ

**İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində tərtib olunan yeni formatda çatışmayan cəhətlər, ədalətsizliklər yetərincə bol oldu. 1945-ci il oktyabrın 24-də dünyanın ən güclü 50 dövləti tərəfindən yaradılmış "Ümumdünya Hökuməti" bütün Yer kürəsindəki insanlar adından bir qərara imza atdı və bununla da planetimizin idarə olunmasında 5 ölkənin pay almasına kəfil oldu. Hazırda dünyanın 193 ölkəsi, 500 asılı ərazi, Antarktida materiki, Qərbi Səhra, Dünya okeanı bütünlükdə yer kürəsinin 80 % ərazisi BMT-nin mandat sisteminə daxildir. Soruşa bilərsiniz, burada qəribə nə var ki? Əgər bir əsrdə iki dünya müharibəsi baş verirsə və dünya ölkələrini idarə etmək, uzlaşmanı təmin etmək mümkün olmursa burada gərəkən bütün addımları, o cümlədən BMT kimi qurumu yaratmaq da çıxış yollarından biri kimi qəbul edilməlidir. Amma...**



"Əmma"sı budur ki, dünya birliyi, BMT adlı qurum yaradılanda yalnız bir qrup ölkənin maraqları nəzərə alınıb, deyə söyləyə bilərik. Məsələ burasındadır ki, BMT Təhlükəsizlik Şurası (TŞ) adlı qurum təsis ediləndə də qeyri-müəyyənlik baş verib. Belə ki, TŞ-nin 15 üzvündən 5-i daimidir. Yəni 10 üzv iki ildən bir dəyişsə də daimi üzvlər düz 78 ildir ki, faktiki olaraq dünyanı de-fakto idarə edirlər. Burada 10 TŞ üzvü səs versələr də veto qoymaq hüququna malik deyillər. Bu status yalnız daimi üzvlərə aiddir. Bundan başqa, daimi üzvlərin seçilmə qaydası tərtib olunanda dünyanın üçdə ikisinin maraqlarını qoruyan regional, yaxud milli-etnik cəhətdən bir olan və bu prinsiplər əsasında birləşən ölkələrin təmsilçilikləri nəzərə alınmayıb. Dünya əhalisinin və ərazisinin üçdə birini təmsil edən müsəlman dövlətlərin heç biri TŞ-nin üzvü deyil.

Bu gün isə vəziyyət dəyişib, dünya sanki ikinci dünya müharibəsindən sonrakı dövrünü xatırladır. Dünya "beşliy"ində təmsil olunan, daha dəqiq desək dünya ağalığına can atan ölkələr arasında fikir ayrılıqları o qədər dərinləşib ki, hətta aralarında böyük müharibənin başlanacağı da heç kimdə təəccüb yaratmır. Bir sözlə, dünyanın nizamı pozulub, "at izi it izinə qarışıb". BMT TŞ-nin daimi üzvləri yekdil qərar qəbul etməkdə çətinlik çəkirlər. Həm də son vaxtlar Fransanın timsalında qərəzli, ikili standartlara söykənərək qərarların verilməsi adi hal alıb. Dövlətlərin maraqları dünya birliyinin maraqlarından önə çıxıb. BMT-nin ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çin kimi iri dövlətləri, TŞ-nin daimi üzvləri arasında münasibətlər müharibə həddindədir. ABŞ Çinlə müharibəyə hazırlaşdığı halda, Ukrayna üzərindən Rusiya ilə aparılan müharibənin artıq iştirakçısıdır. Bu müharibədə Avropa İttifaqı Rusiyaya qarşı hibrid müharibəsində iştirak edir. Yuxarıda dediyimiz kimi, artıq dünyanın indiki durumu, ölkələr arasında münasibətlər II Dünya müharibəsindən sonranı xatırladır.

Belə bir şəraitdə dünyanın yenidən şəkillənməsinə, TŞ-nin tərkibinə yenidən baxılmasına ciddi ehtiyac yaranıb. Bu il Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev maraqlı çıxışı ilə yadda qaldı: "Dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir. Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun. Bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Mən Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamağa və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməyə çağırıram. Biz Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikrini dəstəkləyirik".

Bundan başqa dünya birliyinin ədalətli idarə olunması üçün qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın fikirləri də bəşəriyyətə yeni çalar gətirə bilər. Bunun üçün qardaş ölkənin əsasları da var. Türkiyənin nəinki regionda, həmçinin bütün dünyada əsas güc mərkəzinə çevrilib və proses hər gün yeni uğurlar əldə olunmaqla davam edir. Bunu bəzi Qərb ölkələrini və Amerika Birləşmiş Ştatlarını qəbul etmək istəmir və dünya idarəçiliyində özlərinə şərik qoşmaq istəmirlər. Amma Türkiyə dünyanı idarə etmək yox, ədalətli qərarlar vermək iddiasını ortaya qoymaq üçün bu təribi müdafiə edir. ABŞ prezidenti Co Bayden "Erməni soyqırımı" ifadəsini işlətməklə bu narahatlığını bir daha göstərmişdi. Bütün dünya da bilir ki, Türkiyənin müstəqil siyasətinə, geosiyasi uğurlarına zərbə vurmaq məqsədi daşıyan bu cür cəhdlər heç bir səmərə verməyəcək, rəsmi Ankaranı təzyiqlərlə "sındırmaq" mümkün olmayacaq. Azərbaycanın da Türkiyənin yanında olduğunu unutmasınlar. Ölkəmiz və millətimiz bütün vasitələrdən istifadə edərək qardaşlarını Qərbin mənfur planlarından qoruyacaq.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 73-cü sessiyasında çıxışı zamanı BMT-ni və zülmə səssiz qalan üzv dövlətləri tənqid edib. Bildirib ki, "BMT Təhlükəsizlik Şurası dünyada baş verən zülmləri seyr edən və 5 daimi üzvə xidmət edən bir forma alıb. Dünya "5"dən böyükdür. İnsanlığın ortaq vicdanının səsi olduğumuza inanırıq".

Qardaş ölkənin Prezidenti qeyd edib ki, BMT və onun müxtəlif strukturları 1945-ci ilin siyasi-iqtisadi mühitinə uyğun formalaşdırılıb: "TŞ-də Afrika ölkələrinin, türk-islam dünyasının təmsilçilərinin olmaması da ciddi çatışmazlıqdır. BMT Təhlükəsizlik Şurasındakı veto hüququna sahib ölkələrin sayı artırılmalıdır". Ərdoğan haqlı olaraq bildirib ki, bəşəriyyətin taleyini BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü həll etməməlidir. Türkiyə Prezidenti dəyişiklik tələblərinə qulaq asılmamasının səbəbini də göstərib. Bildirib ki, bu,"beşlik" tərəfindən II Dünya müharibəsindən sonra yaranmış status-kvonu təkidlə qoruyub-saxlamaq cəhdidir. Əlbəttə, dünyada 5 yox, 200-dən çox ölkə var. Dünya əhalisinin taleyi isə "bir ovuc" dövlətin əlindədir. Qlobal təhlükəsizlik arxitekturasının əvvəlki kimi qalması qəbuledilməzdir.

R.T.Ərdoğanın irəli sürdüyü bu təklifi Almaniya və Yaponiya rəhbərləri də zaman-zaman qaldırıblar. Türkiyə Prezidentinin təklifi Rusiya tərəfindən də dəstəklənib. Perspektivdə yeni üzvlərin bu siyahıya daxil ediləcəyi istisna deyil. Ərdoğanın açıqlaması isə məsələyə yeni stimul verir. Belə bir islahata ehtiyac olduğuna son otuz ildə dünyada bəzi dərin dəyişikliklər baş verməsi şərait yaradır. BMT Təhlükəsizlik Şurasının hazırkı tərkibi isə baş verən qlobal dəyişikliklərə adekvat deyil, indiki vəziyyət İkinci Dünya müharibəsindən sonrakı dövrü xatırladır. Türkiyə kimi güclü, nüfuzlu regional oyunçuların kənarda saxlanılması qlobal böhranlar və transmilli problemlərlə effektiv və təsirli üsullarla məşğul olmağa imkan vermir. Əlbəttə Ərdoğan bu məsələdə haqlıdır. Dünyada sayı sürətlə artan islam dünyası BMT Təhlükəsizlik Şurasında təmsil olunmur, bu da qərəzli qətnamələrin çıxarılması ilə müşaiyyət olunur. Bunu qlobal şəkildə həll etməyin yeganə yolu dünyanın "beşlik"dən azad olmasıdır.

Türkiyənin müsəlman-türk dünyasını təmsil etdiyini, regionda sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm aktor olduğunu qətiyyətlə söyləmək olar. Rusiya-Ukrayna müharibəsində Türkiyənin barışdırıcı mövqeyi dünyanın itirdiyi sülh şanslarını bir daha alovlandırdı. Həm də beynəlxalq təhlükəsizliyi təmin etmək vəzifəsi olan BMT Təhlükəsizlik Şurası kimi qurumların uğursuzluqlarını üzə çıxardı. Türkiyənin illərdir müdafiə etdiyi "Dünya beşdən böyükdür" fikri bu hadisələrlə bir daha təsdiqini tapdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Daha ədalətli bir dünya mümkündür" kitabında da bu qeydlər var. Kitabın əsas qayəsini "Dünya 5-dən böyükdür" tezisi təşkil edir. Ərdoğan dünya məsələlərinin yalnız TŞ-nin 5 daimi üzvü tərəfindən müzakirəsinin və qərarların bu əsasda qəbul edilməsinin əleyhinədir. Həqiqətən BMT-nin 5 daimi üzvü - ABŞ, Rusiya, Böyük Britaniya, Çin və Fransa bir çox hallarda problemlərin həllini sürətləndirməkdə ya acizdirlər, ya da bilərəkdən bu addımı atırlar və bununla da bir-birlərinə mane olurlar.

BMT TŞ-nin daimi üzvlərinin fəaliyyəti həm də dünyada sülhün, təhlükəsizliyin bərqərar olacağına ümidləri azaldır. 1993-cü ildə BMT TŞ-nin 4 qətnaməsini xatırlayaq. Ermənistanın Azərbaycana qarşı törətdiyi işğalçılıq siyasətini guya durdurmaq, erməni qoşunlarının Azərbaycan torpaqlarından, suveren ərazilərimizdən çıxarılmasını təmin etmək barədə qəbul edilmiş qətnamələrin aqibəti barədə düşündükcə, "beşliy"in nə qədər aciz və dişsiz olduğunu anlayırsan. Diqqət edin, Təhlükəsizlik Şurasında bugünə qədər irəli sürülən 2446 qətnamə layihəsinə 249 dəfə veto qoyulub. Rusiya 112 veto ilə liderdir, ABŞ - 81 veto, Böyük Britaniya - 29 veto, Fransa - 16 veto, Çin - 11 veto. Belə bir "beşlik" dünyanın hər gün artan problemini necə həll edə bilər? Həm də, məsələn, müsəlman dövlətlərin, Afrikanı, Latın Amerikasını təmsil edən ölkələrin taleyi həll olunan məsələlərdə TŞ-nin daimi üzvləri tərəfindən hansı bədnam qərarların veriləcəyini təsəvvür edə bilirsinizmi? Ona görə də Ərdoğan hesab edir ki, BMT Təhlükəsizlik Şurasının sayı 5-dən 20-yə qədər artırılmalı və Təhlükəsizlik Şurasının Baş Assambleya qarşısında hesabatlılığı olmalıdır. Belə olmasa dünyada nizam-tərəzi həmişə çaşacaq, ədalətsiz qərar və qətnamələr hər bir dövlətin qapısını döyəcək.

Türkiyə Prezidentinin təklifi 5 daimi üzvün xoşuna gəlmir, əvəzində Yaponiya, Hindistan və Almaniyanın maraqlarına cavab verir. Yaponiya və Hindistan Çinin regional siyasətindən narazı olduqları səbəbindən ərdoğanı dəstəkləyirlər. Əlbəttə, bu da narahatlıq doğurur. Deməli, Yaponiya və Almaniya məhz Çini neytrallaşdırmaq üçün Türkiyəni dəstəkləyirlər və aydın olur ki, əslində hər iki ölkənin marağı dünya birliyində münasibətləri normal məcraya yönəltmək yox, öz maraqları ifadə etmək üçün mövqe, tribuna əldə etməkdir. Almaniya Avropanın lider ölkəsidir. ABŞ-ın hər gün artan təzyiqləri artıq Berlinin əsəblərini idarəolunmaz həddə çatdırıb və bu səbəbdən okeanın o tərəfindən gələn hədələrə qarşı platforma formalaşdırmaq niyyətindədir. Hindistan isə Çindən acıqlıdır. Çin-Hindistan sərhədində toqquşmalardan sonra Təhlükəsizlik Şurasında Çinin veto hüququ hər şeyi həll etdi və ümumiyyətlə Hindistanın etirazını BMT-də müzakirə etmək qeyri-mümkün oldu.

Yenə də məsələ açıq qalır, dünya dəyişdiyi halda, qlobal hadisələr yaşandığı bir zamanda BMT TŞ-nin tərkibi dəyişəcəkmi? "Dünya 5-dən böyükdür" tezisi məntiqi sonluğuna varacaqmı? Türkiyənin və Azərbaycanın təklifinə bəşəriyyətin sonunu düşünənlərdən, ədalətli idarə olunmasını istəyənlərdən dəstək gələcəkmi? Bu dəyişiklik zamanın tələbidir, artıq vədə yetişib, planetimiz vizual görünüşünü dəyişməmiş, kataklizmlər baş verməmiş öncə siyasi münasibətlərdə islahatların aparılması vacibdir. Ən önəmlisi isə bəşər övladını dünyanın 5-dən böyük olduğuna inandırmaqdır. Əks halda...

**V.VƏLİYEV**

# Ətin qiyməti niyə bahalaşır?

***Son günlər Azərbaycanda ətin qiymətində artım müşahidə edilir. Belə ki, bölgələrdə az da olsa ucuzluq müşahidə olunsa da, ümumilikdə Bakı ilə yanaşı, bölgələrdə də ət bahalaşıb.***

SİA mövzu ilə bağlı araşdırma edib.

## Ətin insan orqanizminə hansı fayda və zərərləri var? Hər gün ət yesək nə olar?

Həddindən artıq ət istehlakı ən çox həzm sisteminə təsir edir və mədədə müəyyən narahatlıq yarada bilər. Güc qıran bir qida olduğundan, orqanizm onu həzm etməkdə çətinlik çəkir. Bu səbəbdən həddindən artıq istehlak edildikdə mədə ağrısı, bağırsaqlarda qaz və şişkinlik kimi problemlər yarana bilər.

## Ət yediyimiz zaman bədəndə nələr baş verir?



Ətin anemiyanın qarşısını almaq, hamiləliyi dəstəkləmək, ürək-damar sağlamlığını qorumaq, psixoloji sağlamlığı dəstəkləmək, yuxusuzluğu müalicə etmək, xolesterin səviyyəsini balanslaşdırmaq, raxit xəstəliyini müalicə etmək, əzələləri gücləndirmək, enerji vermək və dərini sağlam saxlamaq kimi inanılmaz sağlamlıq faydaları var.

Yeni Yasamal ərazisində yerləşən "Məmmədli" ət dükanının sahibi Vəli Qarayev: "Bizdə mal ətinin 1 kiloqramı 14.50 AZN, quzu əti 16.50 AZN, qoyun əti isə 12.50 AZN-dır. Alıcı qabiliyyəti isə əvvəlki aylarla müqayisədə çox zəifdir. Ət alan da 1 kq zorla ala bilər, ya almaz.

Qeyd edim ki, bizim heyvanlar Bərdədən gəlir və çox keyfiyyətli ətdir".

## Bəs, qonşu ölkələrdə vəziyyət necədir?





Türkiyədə bu il Ramazan ayı yaxınlaşdıqca ətin qiyməti qalxmaqda davam edir. İlin əvvəlindən artım tempi 50 faizə çatıb. Belə ki, fevral ayında mal əti qiymətlərinin bir əvvəlki aya görə yüzdə 10,31 artması diqqət çəkir.

Milli Qırmızı Ət Şurasının 2 martda etdiyi şərhdə inflyasiya məlumatlarından bir gün əvvəl qırmızı ət qiymətlərində aylıq və illik artımlar diqqət çəkib. Kombayn və kəsim məntəqələrindən alınan həftəlik arıq mal və arıq quzu ətinin qiymətlərinə əsasən, mal ətində aylıq artım 30,3 faiz, illik artım isə 147,4 faiz olub.

Belə ki, Türkiyədə quzu quşbaşının 1 kiloqramı 375, 90 TL (33.15 AZN), çəkilmiş quzu əti 405,90 TL (35.80 AZN), sümüksüz quzu bud 375,90 TL (33.15 AZN), yağsız dana 379,90 TL (33.50 AZN), dana əti qiymə 329,90 TL (29.09 AZN), quzu antrikot 433,90 TL (38.27 AZN), quzu qol 265,90 TL (23.45 AZN).



**İqtisadçı ekspert Eldəniz Əmirov:** "Statistika Komitəsinə istinad edərək qeyd edib ki, 2023-cü il yanvar ayının 1-nə Azərbaycanda iribuynuzlu heyvanların sayı 2,62 milyon, xırdabuynuzlu heyvanların sayı isə 7,77 milyon olub. Halbuki, 2016-ci ildə iribuynuzlu heyvanların sayı 2,70 milyon, xırdabuynuzlu heyvanların sayı 8,67 milyon idi.

Ümumilikdə görərik ki, 7 il ərzində heyvan sayı bir milyon baş azalıb. Əhali sayı 2016-ci illə müqayisədə 500 mindən çox artıb. 9,7 milyondan artaraq 10,2 milyonu keçib. Beləcə, ölkəmizdə insanların sayı son 7 ildə yarım milyon nəfər artıb, heyvanların sayı isə bir milyon baş azalıb.

İqtisadçı heyvanların sayının azalması ilə bağlı bildirib ki, səbəblər çoxdur, amma başlıca səbəb yem məhsulları amilidir, o cümlədən, örüş sahələrinin azalması məsələləridir: "Cəmi 20 il əvvəl biçənək və örüş-otlaq sahələri 2 678 000 hektar idi. Amma 2021-ci ildə örüş-otlaq sahələri 2 417 000 hektara enib, yəni 261 000 hektar azalıb. 261 min hektar heyvandarlıq üçün çox böyük sahədir".



**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli:** "Bölgələrlə Bakı şəhərinin arasında ətin qiyməti üzrə fərqlərin olması bir tərəfdən təbii haldır. Çünki bilirsiniz ki, heyvandarlıqla əsasən ölkənin bölgələrində məşğul olurlar və orada heyvandarlıqla məşğul olan fermer öz məhsulunu, malını, ətini birbaşa bazara çıxara bilir. Ona görə də birbaşa bazarda, sözsüz ki, ətin qiyməti bir qədər aşağı olmalıdır.

Bakı isə digər böyük şəhərlər var ki, tutaq ki, Gəncə, Lənkəran, Astara, Mingəçevir kimi şəhərlərdə ət biznesi, ətin satışının təşkili bir qədər monopoliyalaşıbdır. Ona görə də bölgələrdə ətin qiyməti ilə Bakıda ətin qiyməti arasında xeyli fərqlər vardır. Biri var yəni o sallaqxanada satılan ətlərin qiymətləridir, biri də var topdansatış bazarın qiymətləridir. Sallaqxanalarda olan fərq bölgələrlə Bakı arasında təxminən 2-3 manatdır. Amma topdansatış qiymətləri ilə Bakı sallaqxanalarının ət qiymətləri arasında bəzən 5-6 manat fərq olur. Bu da onunla əlaqədardır ki, fermer yalnız öz rayonundakı və yaxud qonşu rayondakı diri mal bazarına heyvanları çıxarıb satmağa məhkumdur. Yəni, tutaq ki, Beyləqan rayonunda 2 min qoyunu olan fermer birbaşa öz heyvanlarını kəsib ət şəklində gətirib bazarda sata bilmir. O, bazara girə bilməz. Yəni bu səbəbdən fermer məcburdur ki, öz heyvanlarını həmin rayonun ərazisində tutaq ki, Beyləqanın, Ağcabədinin, İmişlinin mal bazarına çıxardıb yəni, bunlar əslində, topdansatış ət bazarıdır, ən böyük seqment bu bazarda topdansatış ət bazarına çıxartsın, o bazarlardan da Bakıda ət bazarını öz inhisarında saxlayan qruplar da həmin bazardan məhsulu alır və gətirib Bakıda satır.

İkinci bir qrup yoxdur. Yəni, alternativi olmadığına görə bu qrup Bakı şəhərində qiyməti diktə edə bilir. Bir tərəfdən bunlar rayonlarındakı mal bazarında qiyməti tənzimləyə bilirlər. Yəni bir qədər sözləşiblər ki, bazarda dövriyyəni azaldaraq bazarın əsas müştəriləri Bakıdan gedən qəssablardır. Onlar sözləşib az mal alırlar. Az mal alanda artıq tələb azalır və təklif artır. Məcburən qiymət enir. Növbəti bazar günü isə, növbəti bazar olanda qiymətlər bir qədər də aşağı düşür. Yəni, Bakıda ət satışının monopoliyada olması, əsasən, bölgə ilə Bakı arasındakı ətin qiymətində fərqləri yaradan əsas səbəbdir".

***Ayşən Vəli***

ARAŞDIRMA





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb*

# Evdən yox, eldən gedən insan - "Zərifə Əliyeva-100"

## Həmkarlarının və pasiyentlərinin "qoruyucu mələk" adlandırdığı görkəmli alim

**Azərbaycan azsaylı ölkələrdəndir ki, tarixi boyunca çox güclü, savadlı, hökmran, qüdrətli qadınlara vətən olub. Doğrudur, hər xalqın tarixində böyük qadınlar, sözün həqiqi mənasında qeyrətli analar olur. O qadınlara ona görə "böyük analar" deyirlər ki, təkcə öz övladlarının deyil, bütün xalqın anası olurlar. Onlar üçün öz ömrü yox, başqalarının ömrü əsas olur. Elə bu səbəbdəndir ki, bu nümunəvi insanlar öz həyatlarını insanların sağlamlığına, cəmiyyətin xoşbəxt gələcəyinə həsr edirlər. Azərbaycan tarixində silinməz iz qoymuş belə böyük insanlardan biri də Zərifə Əliyevadır. İnsan var, vəfatı ilə bir evdən gedir, insan var, bütöv bir eldən. Zərifə Əliyeva eldən gedən insanlardan idi.**









### Oftalmologiya elminə yeniliklər gətirən alim

Görkəmli pedaqoq, istedadlı alim, bacarıqlı həkim, böyük ictimai xadim və ən əsası gözəl qadın, dəyərli ana kimi tanıdığımız Zərifə Əliyevanın 100 illik yubileyi ərəfəsindəyik. Azərbaycan xalqı onu həmişə böyük ehtiramla yad edir. Dəyərli oftalmoloq alimimiz Zərifə Əliyevanın yüzlərlə insana işıq bəxş edib, qaranlıqdan çəkib çıxarıb. O zülmətə qərq olan gözlərə nur verib, köməksizlərə həmdəm olub- əsl insan olub, əsl həkim olub.

"Hippokrat andı" Zərifə xanım Əliyeva üçün toxunulmaz dəyər olub, o öz peşəsinə ömrü boyu vicdanla yanaşıb. Səmərəli və zəhmətsevər fəaliyyətində əsil insani dəyər olan vicdana, səmimiyyətə böyük önəm verib. Bütün bilik və gücünü, istedad və bacarığını insanların sağlamlığının qorunmasına və yaxşılaşmasına sərf edib, saysız-hesabsız müalicələri ilə göz xəstəliklərinin qarşısını almağa səy göstərib.



Zərifə xanım dinləyiciyə əsərin varlığını, mahiyyətini çatdırmağı bacarırdı. Zərifə Əliyevanın tələbələri ona professionallığın və müdrikliyin canlı nümunəsi olan professor kimi baxırdılar. O, həmişə məntiqli və eyni zamanda, səmimi danışırdı, yüksək nitq mədəniyyəti ilə seçilir və tələbələrində xüsusi həvəs yaradırdı”.

Məşhur oftalmoloq, akademik A.Nesterov onun haqqında böyük ehtiramla ”Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli həkim idi.” deyə danışıb.

## ”O, ailəmizin möhkəmliyinin memarıdır”

dirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar”.

## Müzəffər lider yetişdirən ana oğlunun gözündə necədir?

Prezident İlham Əliyev anası haqqında hər zaman böyük ehtiram və məhəbbətlə danışıb. O Zərifə xanımın xüsusiyyətlərinə, mehribanlığına, təvazökarlığına heyran olduğunu deyir: ”Anam atamın yalnız ömür-gün yoldaşı deyildi, eyni zamanda bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq”.



Zərifə Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib.

Fəaliyyəti boyunca onlarla araşdırmaya, elmi məqalələrə imza atan Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb.

Qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb. Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olub.

Zərifə xanım Azərbaycan tibb elminin tarixində, onun şöhrətlənməsində ləyaqətli yer tutmuş görkəmli alim və mütəxəssislərdən biri idi. Dünya tibb elminə yeni nailiyyətlər bəxş edib akademik adına yüksələn Zərifə xanım Əliyeva dəyərli ziyalı və alim kimi respublikamızın hüdudlarından kənarda da yaxşı tanınmışdı. Onunla birlikdə elmi iş aparanlar onun nailiyyətlərindən, yüksək mədəniyyətindən, nəcib xüsusiyyətlərindən hər zaman iftixarla danışıblar.

## Zərifə Əliyeva məşhur həmkarlarının gözü ilə...

Görkəmli alim N.Puçkovskaya xatirələrində yazır ki, Zərifə Əliyevanın fəal təşkilatçısı olduğu oftalmoloqların qurultaylarının birində nümayəndələrdən birinin ayağının sındığını və onun müalicəsinə Zərifə xanımın necə can yandırdığını yaxşı xatırlayır: ”O, hər gün xəstəxanaya gəlir, xəstənin halına qəlbən yanır, hətta lazım olan şeyləri öz evindən gətirirdi ki, müalicəyə xeyri dəysin. Zərifə xanım xəstəyə bir-iki gün deyil, bütün müalicə müddətində hər gün baş çəkdi”.

1979-cu ildə Oftalmoloqlar Cəmiyyətinin Moskvada keçirilmiş iclasında Zərifə xanımın möhtəşəm çıxışı həmin illərdə mətbuatda çox yazıldı. Zərifə Əliyeva peşəkar bir natiq kimi həkimin mənəvi tərbiyəsi, dövrün ən müasir tibb etikası və mənəviyyatı məsələləri haqqında çox maraqlı məruzə ilə çıxış edib. Çıxışdan sonra Sovet oftalmologiyasının patriarxı, akademik M.M.Krasnov ona yaxınlaşaraq qarşısında baş əyib və onun əlindən öpüb: ”Mənim sadəcə sözüm yoxdur! Sizə heyranam!” - deyib.



Rusiyalı məşhur oftalmoloq, tibb elmləri doktoru, professor Z.M.Skripçenko Zərifə xanım Əliyeva haqqında xatirələrində onu ”Qoruyucu mələk” adlandırır: ”Bir dəfə Zərifə xanımla birlikdə həmkarlarımızın evində qonaq idik. O, yüksək intellektli adamların əhatəsində öz cəlbedici sadəliyi və həyat eşqi ilə seçilirdi. Siz təsəvvür edirsiniz, bir həkim fortepianoda musiqiyə xüsusi rəng verərək populyar melodiyalar, rəqslər ifa edirdi! O sanki həm də peşəkar pianoçu idi.

Onun saf məhəbbəti ömür-gün yoldaşına, Ümummilli Lider Heydər Əliyevə də güc verirdi. Zərifə xanım ömrünün axırına qədər həyat yoldaşına ləyaqətli ömür-gün yoldaşı, arxa-dayaq olub. Vəfatından uzun illər sonra belə Heydər Əliyev onunla bağlı danışanda hər dəfə kövrəlir, göz yaşlarını boğa bilmirdi. Bir qadının qiymətini bundan artıq necə ifadə etmək olar ki?

Ulu Öndər Heydər Əliyevin xatirələrindən: ”Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədə-

Prezident xatırlayır: ”1970-ci illərdə atam Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin - birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. Çox təvazökar idi. Anam bəziləri üçün o, necə deyərlər, son ümid yeri idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O, çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini ədalətlə tapırdı. Zərifə xanım daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı”.

İlham Əliyev anasının böyük musiqi zövqünü də xatırlayır: ”O çox istedadlı insan idi, hərtərəfli istedadlı idi. Yalnız öz sahəsini yox, musiqini də çox sevirdi. Anam istənilən melodiyanı, istənilən mahnını notlarsız çox böyük məharətlə, ustalıqla pianoda ifa edə bilirdi. Teatrı çox sevirdi və yadımdadır ki, 1970-ci illərdə onunla bərabər dəfələrlə Azərbaycan teatrlarında olmuşam, bütün tamaşalara baxmışam. Elə tamaşalar var idi ki, biz o tamaşalara bir neçə dəfə bir yerdə baxırdıq. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olub. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, o hələ çox iş görə bilərdi”.

Zərifə Əliyevanın bütün həyatı insanlara xidmətə həsr olunub. Bu, yüksək vətəndaş mövqeyi, həssaslığı, insanlara qayğı və diqqəti sayəsində xalqın dərin hörmət və məhəbbətini qazanan Zərifə xanımın, ilk növbədə, böyük və parlaq şəxsiyyət olmasından irəli gəlirdi. Görünür, onun insanlara faydalı təsirinin sirri məhz bu yaradıcı qüvvədə, tükənməz mənəviyyatdadır və bu, hamının onu sevməsi və hörmət etməsi ilə bağlıdır.

*Lalə Mehralı*

# Azərbaycan və Tacikistan - iki sabit dövlətlər arasında qardaşlıq münasibətləri

## İLHAM ƏLİYEV: "Dövlətlərarası münasibətlərimiz dövründə çox möhkəm təməl yaratmağa nail olmuşuq"

Bəli, bu gün 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın öz ərazilərini erməni işğalından azad etməsindən sonra ölkəmizin regionda və dünyada nüfuzu durmadan artır. Azərbaycan regionda söz sahibinə çevrilib və Cənubi Qafqazda vəziyyətə özü diktə edir. Təsadüfi deyil ki, bölgədə sülhün bərpası prosesində Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergüc dövlətləri və beynəlxalq təşkilatları tərəfindən qəbul edilməkdədir. Bu isə Azərbaycanın müxtəlif ölkələrlə, o cümlədən Tacikistanla əlaqələri yüksələn xətlə inkişaf etməkdədir. Belə ki, iki ölkə arasında diplomatik münasibətlər 29 may 1992-ci ildə yaradılıb, ölkəmizin Tacikistandakı səfirliyi 2007-ci ildə açılıb. Bir il sonra - 2008-ci ildə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. Qeyd edək ki, ölkələr arasında ticarət, investisiya, nəqliyyat, tranzit, İKT, turizm, təhsil və digər sahələrdə uğurla əməkdaşlıq edir. Bir sözlə, bu gün iki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Xüsusilə də, son iki il ərzində Mərkəzi Asiya, o cümlədən regionun türkdilli ölkələrinə edilən qarşılıqlı səfərlər, türk dünyası üzvləri ilə əlaqələrin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir.

Elə bu günlərdə, yəni aprelin 5-də Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistan Prezidenti Emoməli Rəhmonun rəsmi dəvəti ilə Tacikistana dövlət səfəri iki ölkə arasından dost və qardaşlığın göstəricisidir.

### AZƏRBAYCAN PREZİDENTİ: "Həmişə mehriban dostlar kimi çox səmimi əməkdaşlıq edirik"

Son illər dünyada baş verən proseslər ölkələrdən qarşılıqlı əməkdaşlığı, səmərəli fəaliyyəti və birgə səylər göstərməyi tələb edir. Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü zamanı bildirib ki, 30 ildə təhlükəsizlik sisteminin təməl daşı olan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət həyata keçirən müstəqil Azərbaycan dünyanın əksər dövləti, eləcə də mötəbər təşkilatlarla əlaqələrini daha da inkişaf etdirir: "Ölkələrimizin xalqları uzun müddət ərzində fəal qarşılıqlı əlaqə saxlayırlar. Çox sevindirici haldır ki, 30 ildən artıq inkişaf edən dövlətlərarası münasibətlərimiz dövründə biz çox möhkəm təməl yaratmağa və bu təməl üzərində dostluğumuzun möhkəm binasını qurmağa nail olmuşuq".

Prezidenti İlham Əliyev onu da vurğulayıb ki, mehriban dostlar kimi həmişə çox səmimi əməkdaşlıq edirik: "Biz həm çoxtərəfli formatda, həm də xüsusilə ikitərəfli formatda



fəal qarşılıqlı əlaqə saxlayırıq. Həmişə mehriban dostlar kimi çox səmimi əməkdaşlıq edirik".

### PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan və Tacikistan arasında qardaşlıq münasibətlərinin əsası 1990-cı illərin əvvəllərində qoyulub"

Azərbaycan və Tacikistan prezidentləri həm təkbətək, həm də geniş tərkibdə görüşləri zamanı qarşılıqlı əməkdaşlığın inkişafına dair faydalı müzakirələr aparıblar. Dövlət başçılarının mətbuata birgə bəyanatları zamanı Prezident İlham Əliyev ölkələrimizin qardaşlıq münasibətlərini vurğulayıb: "Atam Heydər Əliyevin xatirəsinə səmimi münasibətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirmək istərdim. O, Emoməli Şərifoviç Rəhmon ilə birlikdə ölkələrimiz arasında dövlətlərarası münasibətlərin formalaşmasının təşəbbüskarı olub və mahiyyət etibarilə onlar bu münasibətlərin əsasını qoyublar".

Dövlətimizin başçısı qeyd edib ki, bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərindəki fəaliyyətin nəticəsidir: "O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, - hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular".

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEV QARDAŞ QIRĞINININ QARŞISINI ALDI, GƏNCƏ QİYAMI TAMAMİLƏ YATIRILDI

Bəli, o vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Belə ki, hakimiyyətdə olan AXC-Müsavat cütlüyü antimilli siyasət həyata keçirirdi, bu siyasət nəticəsində isə torpaqlarımızın işğalı prosesi sürətlənmişdi, ölkədə hərc-mərclik hökm sürürdü, cənubda qondarma "Talış-Muğan respublikası" elan edilmişdi, faktiki olaraq ölkənin cənubu nəzarətdən çıxmışdı. Şimalda isə "Sadval" deyilən separatçı hərəkat formalaşmışdı və ölkənin şimalını Azərbaycandan qoparmaq niyyətini ortaya qoymuşdu. Ermənistanın işğalçılıq siyasəti, cənubda və şimalda baş verənlər paralel şəkildə də Gəncədə faktiki olaraq qardaş qırğınına, vətəndaş müharibəsinə aparırdı. Vətənin bu ağır günündə xalqın tələbi ilə 1993-cü ilə 15 iyunda xalqı təkidli tələbi və təkidi ilə Bakıya qayıdan ulu öndər Heydər Əliyevin böyük səyləri nəticəsində ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, Ümummilli liderin hakimiyyətə qayıdışı ilə Azərbaycan qardaş qırğınından, məhv olmaq təhlükəsindən xilas olundu.

### AZƏRBAYCAN PREZİDENTİ: "Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir"

Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə Tacikistan Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatında bildirib ki, ölkələrimiz arasında uğurlu inkişaf müdrik rəhbərlik sayəsində əldə olunur: "Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı. Buna görə düşünürəm ki, xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar".

### TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMON: "Azərbaycan Prezidentinin səfəri həm bu əlaqələrin, həm də xalqlarımızın çoxəsrlik qarşılıqlı ünsiyyət tellərinin məntiqi davamıdır"

"Bu əlaqələrin əsasını hər bir tacikin evində dərin hörmət bəslənən, misli-bərabəri olmayan Nizami Gəncəvi qoyub. Buna görə də bizim danışıqlar, həmişəki kimi, qurucu xarakter daşıyıb, ikitərəfli qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə və dərinləşdirilməsinə yönəlib. Danışıqların gedişində biz ikitərəfli münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini ətraflı nəzərdən keçirdik, bizim üçün aktual olan bütün məsələlərə dair fikir mübadiləsi apardıq. Bu gün imzalanmış ikitərəfli sənədlər əlaqələrimizin hüquqi bazasının möhkəmləndirilməsinə və tamamlanmasına yönəlib".

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin Tacikstana səfəri, Prezident Emoməli Rəhmon ilə görüş, imzalanan sənədlər və liderlərin səsləndirdiyi fikirlər, hər iki ölkə liderlərinin mətbuata bəyanatlarla çıxışları iki ölkə arasında münasibətlərin inkişafı yaxşı perspektiv vəd edir və bunun üçün böyük potensial mövcuddur. Həmçinin, Səfər bir daha göstərdi ki, hər iki dövlət rəhbərinin arzuları, istəkləri üst - üstə düşür və bu bilavasitə əməkdaşlığın, dostluğun möhkəmləndirilməsinə və xalqların rifahının yaxşılaşdırılmasına, xoşbəxt gələcəyinə hesablanmışdır.

***RƏFİQƏ KAMALQIZI***

# ATƏT-in bölgədə nüfuzunu bərpa etmək şansı varmı?

"ATƏT-in sədri bölgəyə səfər edir, Azərbaycana gəlir. İndiki gərgin münasibətlər fonunda Cənubi Qafqazda proseslərin tənzimlənməsi və Ermənistanla Azərbaycan arasında sülh münasibətlərinin formalaşdırılması üçün mühüm addımlardan birinə çevrilə bilər. Xüsusilə də bölgədə kifayət qədər kövrək atəşkəs, kövrək sülh mövcuddur. Hər an aqressiv, hər an revanşist düşüncəli Ermənistan tərəfindən kövrək sülhün pozulması təhlükəsi var. Belə bir şəraitdə beynəlxalq təşkilatların nümayəndələrinin bölgəyə səfər etməsi, münasibətlərin tənzimlənməsi üçün şanslar formalaşdırır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev bildirib.





Onun sözlərinə görə, səfər formal xarakter daşımamalıdır. Bizim istəyimiz səfər xətrinə səfər olmamasıdır: "ATƏT-in Minsk qrupunun otuz illik səmərəsiz fəaliyyəti fonunda ATƏT-in bölgədə öz reputasiyasını, nüfuzunu yenidən bərpa etmək şansı mövcuddur. Hesab edirəm ki, səfər birbaşa ATƏT sədrinin bölgədə sülhü təhdid edən tərəfə təzyiqləri ilə bağlı olmalıdır. Bu mexanizmlər ATƏT sədrinin əlində kifayət qədərdir.

ATƏT bölgəmizə münasibətdə Ermənistanın birbaşa işğalçılıq siyasətinin nəticəsi olaraq, yaranmış gərgin vəziyyətin günahkarı kimi açıq şəkildə heç bir zaman Ermənistanı ittiham etməyib. Uzun illər ərzində Azərbaycanı bu işğal faktı ilə barışmağa çağırışlar edib. Buna görə də bu səfərdən də böyük nəticələr gözləmək o qədər də inandırıcı görünmür. Amma Azərbaycan hər zaman müxtəlif səviyyəli platformalarda dövlətimizin haqq səsinin bir daha dünyaya çatdırılmasına hazır olub. Düşünürəm ki, ATƏT sədrinin bölgəyə səfəri zamanı da keçirilən görüşlərdə əsas vurğu məhz dövlətimiz, xalqımızın və bölgənin maraqlarının təmin olunmasının üzərinə düşəcək. Bu Azərbaycanın haqq səsinin beynəlxalq səviyyədə dünyaya çatdırılmasında növbəti addımdır".

***Səbinə Hüseynli***

# SİYASİ EKSPERT: "İran İsraili İslam dünyasının düşməni kimi qələmə verir"



"İsrail-İran münasibətləri gərgin olaraq qalır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib. Onun sözlərinə görə, bu münasibətlər artıq uzun müddətdir ki, belə gərgin şəraitdədir: "İran İsraillə qarşı bəzi şiə məzhəbli yaxın Şərq ölkələrini qaldırmağa çalışır, özü İsraillə birbaşa qarşıdurmadan çəkinir".

Vüqar Əhmədov sözlərinə belə davam edib: "Bu iki ölkə arasında yaxın Şərqdə daha çox proksi müharibə gedir. İran İsraillə qarşı daha ədalətsiz münasibət sərgiləyir, İsraili müsəlman dövlətlərinin və İslam dünyasının düşməni kimi qələmə verir. Məhz buna görə İsrail İranın nüvə təhdidindən ehtiyat edir və İsrailin nüvəsizləşdirilməsi istiqamətində dünya ilə sıx iş aparır.

İranın İsraili özünə düşmən hesab etməsi əlbəttə ki, təkcə bu iki ölkə üçün deyil, bütün region üçün, eləcə də bizim region üçün gərginlik və təhdid mənbəyi olaraq qalır. Çünki İrana görə İsraillə müttəfiq olan bütün ölkələr onlar üçün potensial düşmən dövlətdir, bu isə kökündən səhv yanaşmadır. Böyük ehtimal İsrail İranın nüvə obyektlərini zərərsizləşdirmək üçün müəyyən addımlar atacaq".

***Ayşən Vəli***

# Heydər Əliyev-100



# Tarixi faktor: Ulu Öndər Heydər Əliyev siyasəti - zəfər və qələbələr yolu!

***Azərbaycanın yenidən müstəqillik əldə etməsindən ötən illər ərzində respublikamız Avropaya və dünya birliyinə inteqrasiya yolunda inamla irəliləyərək beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirib. Fakt budur ki, müstəqil dövlətimiz beynəlxalq münasibətlər sisteminin fəal üzvlərindən biridir. Qürurla deyə bilərik ki, Azərbaycan mülki cəmiyyət, hüquqi, demokratik və sivil dövlət prinsiplərini müvəffəqiyyətlə həyata keçirən və demokratikləşmə prosesinin dönməz xarakter aldığı bir ölkə kimi tanınıb. Dünyanın inkişaf etmiş dövlətlərinin Azərbaycanla hərtərəfli əməkdaşlığına maraq artmış, iri infrastruktur layihələrin həyata keçirilməsində ölkəmizin zəngin təcrübəsi beynəlxalq aləmdə bir örnəyə çevrilib.***

Tale birinci dəfə Azərbaycan xalqının üzünə 40 il əvvəl güldü. 1969-cu il iyulun 14-də Heydər Əliyev respublikaya rəhbər seçilən gündən Azər-



*Seyfəddin Əliyev, YAP Masallı rayon təşkilatının sədri*

baycanın həyatında keyfiyyətcə yeni mərhələ başlandı. Ulu öndərin hakimiyyətə gəlişi ilə dövlət idarəçiliyində yeni iş metodu, yeni nəfəs, ab-hava yarandı. Respublikanı ağır vəziyyətdən xilas etməyin və tərəqqinin yolunu milli birlikdə görən qüdrətli şəxsiyyət buna nail olaraq geniş planlarını tədricən həyata keçirməyə başladı. İlk növbədə xalqı düşündürən, narahat edən problemləri böyük əzmlə, inadla aradan qaldırdı, respublikanın tərəqqisi naminə əldə edilməsi mümkün olmayan nailiyyətləri gerçəkləşdirdi. Ulu Öndər ilk növbədə elm, təhsil, mədəniyyət, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsindən başladı. Çünki hər bir müvəffəqiyyətə düşünülmüş siyasətlə, savadla, biliklə, elmlə nail olmaq mümkün idi. O, kadrların seçilib-yerləşdirilməsi, işgüzar, bacarıqlı, idarəetmədə təcrübəsi olan insanları irəli çəkməklə Azərbaycanın bütün sahələr üzrə inkişafının tərəqqisinin əsasını qoydu. Heydər Əliyevin rəhbərliyi ilə yeridilən iqtisadi və sosial siyasət və bunun sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsinə, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız xalq təsərrüfatının dərin bilicisi kimi müvəffəq olmaq mümkün idi.

Azərbaycan cəmiyyətinin yenidən qurulması sahəsində geniş miqyaslı işlər həyata keçirməyə başlayan böyük tarixi şəxsiyyət tezliklə Azərbaycan Respublikasını keçmiş İttifaqın qabaqcıl respublikaları cərgəsinə çıxardı. Əsas sosial-iqtisadi göstəricilərinə görə Azərbaycan əksər respublikaları geridə qoydu. Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə gələcək müstəqil Azərbaycanın iqtisadi, sosial, elmi-texniki potensialının hazırlanması böyük uzaqgörənliklə həyata keçirildi. Ulu öndərin xalqına, Vətəninə bağlılığı sovet dövründə də özünü büruzə verdi. Belə çətin bir vaxtda Azərbaycan milli təfəkkürünü qoruyub saxladı.

Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyətindən sonra Konstitusiya layihəsinin 73-cü maddəsi aşağıdakı redaksiyada verildi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Onun bu təklifi qəbul edildi və onun sayəsində Azərbaycanda dövlət dili Azərbaycan dili oldu. Bu, Heydər Əliyevin öz xalqına, millətinə, Vətəninə nə qədər böyük məhəbbətlə bağlandığını, Azərbaycanın adının yüksəkliklərə qaldırılması yolunda həyatını riskə qoymasını təsdiqləyən faktdır. Kommunist ideologiyasının hegemonluq etdiyi bir dövrdə Heydər Əliyev heç kimdən qorxmadan, çəkinmədən ana dili haqqında demişdir: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir".

Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 14 illik fəaliyyəti dövründə respublikamızın həyatında elə bir sahə olmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın sosial rifah halı, həyat səviyyəsinin yüksəldilməsi, elm, təhsil, mədəniyyət və incəsənət, səhiyyə və digər sahələr inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikalar sırasında ən yüksək yerlərdən birinə gətirib çıxardı. Qüdrətli şəxsiyyət bu fəaliyyəti ilə təkcə həmin dövrün Azərbaycanı və vətəndaşları üçün deyil, həm də gələcək müstəqil Azərbaycanın davamlı təməlini, gələcək nəsillərin xoşbəxt və firavan həyatının özülünü qoydu.

1988-ci ildən başlayaraq Azərbaycanda dərinləşməkdə olan ictimai-siyasi böhran getdikcə ölkədə vəziyyəti daha da ağırlaşdırırdı. Artıq dağılmaq ərəfəsində olan SSRİ-nin xain başçısı Mixail Qorbaçovun millətlər arasında ayrı-seçkilik salması, Azərbaycan ərazilərinin Ermənistana bağışlanması xalqın gərilmiş əsəblərini daha da korladı. İstiqlaliyyət, azadlıq uğrunda öz haqq səsini qaldıranlar Qorbaçovun göstərişi ilə qanına qəltan edildi və mərd oğul və qızlarımızın qanı ilə tarixə 1990-cı il 20 Yanvar faciəsi yazıldı. Həmin dövrdə Moskvada ciddi nəzarət altında yaşayan Heydər Əliyev orada Azərbaycan nümayəndəliyinə gələrək dünyanın tanınmış kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirdi və sovet imperiyasının dinc əhaliyə qarşı törətdiyi vandal aktı haqqında beynəlxalq aləmə geniş məlumat verdi. Bu, Ulu Öndərimizin Azərbaycan xalqı qarşısında daha bir tarixi fəaliyyəti oldu.

Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra AXC - Müsavat rəhbərliyinin qətiyyətsizliyi sayəsində ölkədə xaos, hərc-mərclik, özbaşınalıq, anarxiya hökm sürürdü. Ölkəmiz xırda xanlıqlara bölünmək ərəfəsində idi, vətəndaş qarşıdurması baş vermişdi. Belə bir şəraitdə Azərbaycanda müdrik, idarəetmədə zəngin təcrübəsi olan, xalqı arxasınca aparmağa qadir bir şəxsiyyətə böyük ehtiyac yaranmışdı. Azərbaycan nəinki müstəqilliyini qoruyub saxlamaq, hətta varlığını belə itirmək təhlükəsində idi. Belə bir vaxtda artıq Heydər Əliyevin xilaskar və nicat obrazı yeganə ümid mənbəyi kimi ictimai şüuru fəth etdi. Müdrik şəxsiyyətin nüfuzu qarşısında öz niyyət və planlarının puç ola biləcəyini dərk edən Azərbaycanın xarici düşmənləri və daxili bədxahları nəyin bahasına olursa-olsun onu Azərbaycanın siyasi hakimiyyətinə qoymamaq üçün xalqla onun arasında keçilməz sədlər qurmağa çalışırdılar. Lakin xalqımızın böyük oğlunun qüdrətli dühası, polad iradəsi, xalqına, Vətəninə və millətinə olan sonsuz məhəbbəti, istəyi bu sədləri, maneələri qırdı. Xalqın təkidli tələbini və xahişini qəbul edən ulu öndər ömrünün qalan hissəsini Azərbaycanın müstəqilliyinin qorunmasına, beynəlxalq aləmdə tanınmasına, insanların xoşbəxt və firavan yaşamalarına həsr etməyə razılıq verdi. Böyük şəxsiyyətin hakimiyyətə qayıdışını yalnız xalq tələb etmirdi. İxtilafları ilə ölkəni uçurumun qarşısında qoyan bütün siyasi qüvvələr, ölkəni anarxiyaya, özbaşınalığa, xaosa aparan, qardaşı qardaşla üz-üzə qoyan o vaxtkı hakimiyyət də bu müdrik, dahi insanın, idarəetmədə zəngin təcrübəsi olan qüdrətli şəxsiyyətin ölkəyə rəhbərliyə gəlişini yeganə nicat yolu adlandırdılar.

Beləliklə, Heydər Əliyev böyük Vətən, xalq, millət sevgisi nümayiş etdirərək yenidən hakimiyyətə qayıtdı və 13 il ərzində qurduğu dövlətin 1983-cü ildən 1993-cü ilə qədər davamlı şəkildə dağıdılması prosesinin qarşısını aldı, xalqın ondan gözlədiyi işləri reallaşdırdı, ictimai-siyasi sabitlik yaratdı, tənəzzülə uğrayan iqtisadiyyatı tədricən dirçəltdi. Ulu Öndər qarşıya qoyulan vəzifələrdən danışarkən bu fikirləri vurğulamışdı: "Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət qurumunu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəni müharibə şəraitindən çıxarmaq, vətəndaşların rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr mənim prezidentlik fəaliyyətimdə əsas istiqamətlər olacaqdır".

Ulu Öndər Azərbaycana sabitlik, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi, dövlətə ordu, əsgərə ehtiram, qürur bəxş etdi, vətəndaşına ən ali hüquq və azadlıqlar, sərbəstlik, təkmil Konstitusiya, azad və ədalətli seçkilər, xalqın səsi ilə ərsəyə gələn parlament verdi. Ulu öndərin bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın dünya standartlarına uyğun ilk Konstitusiyası hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuşdur. Azərbaycan Konstitusiyasının qəbul olunması ilə ölkədə mülki dövlət və açıq cəmiyyət quruculuğu üçün möhkəm zəmin yarandı. Bununla da Azərbaycanda hakimiyyət bölgüsünün qanuni-hüquqi əsasları bəyan olundu və bu iş böyük müvəffəqiyyətlə həyata keçirildi. Əsas Qanunumuzda Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili təsbit olundu. Heydər Əliyev siyasətinin müdrikliyi, onun atdığı taktiki və strateji addımların sayəsində Azərbaycan üçün həyati əhəmiyyəti olan mənfi təzahürlər qısa müddətdə aradan qaldırıldı, Azərbaycan Respublikası özünə layiqli yer tutdu, diplomatiya sahəsində bir-birinin ardınca möhtəşəm qələbələr əldə etdi, inkişaf etmiş ölkələrlə dostluq və əməkdaşlıq münasibətləri quruldu. Qısa müddət ərzində Azərbaycan 150-dən artıq ölkə ilə diplomatik əlaqələr yaratdı. Ölkəmizdə 82 xarici dövlətin səfirlikləri fəaliyyətə başladı. Bunların 26-sı bilavasitə Bakıda, 56-sı isə həmin dövlətlərin qonşu ölkələrdəki səfirliklərində akkreditə olundu. Öz növbəsində Azərbaycanın 29 xarici ölkədə səfirlik, baş konsulluq və daimi nümayəndəliklərinin fəaliyyətə başlaması üçün yüksək səviyyədə şərait yaradıldı.

Heydər Əliyev siyasi məktəbi zəngin bir xəzinədir. Məhz bu siyasət Azərbaycanı dünya miqyasında tanıdır, daim irəliyə doğru aparır, xalqın həyat səviyyəsini getdikcə yüksəldir. Fəxr edirik ki, bu gün müstəqil dövlətimizə rəhbərlik məhz bu siyasi məktəbin ən layiqli və alternativsiz yetirməsi Prezident cənab İlham Əliyevə etibar edilib. Əlbəttə, bu, xalqın seçimi, etibarı, inamıdır.

Bu gün Azərbaycan həm də qalib ölkədir və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etməsindən sonra verdiyi tarixi bəyanatında ilk olaraq Ata vəsiyyətini yerinə yetirdiyini vurğuladı. Bəli, Azərbaycan xalqı və dövləti özünün şanlı Ordusu ilə dünyaya sübut etdi ki, xalqımız məğlubedilməz xalqdır və eyni zamanda, Qarabağın azad ediləcəyini Ulu Öndər Heydər Əliyev də dəfələrlə vurğulayırdı. Əbəs deyil ki, Prezident İlham Əliyev də hər çıxışında xüsusilə qeyd edirdi ki, Azərbaycan xalqı heç vaxt işğal faktı ilə barışmayacaq və bu vəd də yerinə yetirildi. Məhz fərəhli haldır ki, möhtərəm Prezidentimiz qarşısına qoyduğu vəzifələri daim layiqincə yerinə yetirir. Və ən mümüm faktlardan da biri budur ki, Ulu Öndərin siyasi kursunun ən layiqli yetirməsi və alternativsiz lideri olan möhtərəm Prezidentimiz cənab İlham Əliyev ölkəmizin və xalqımızın daha böyük qələbələrə imza atması istiqamətində öz nəhəng və əzmkar siyasətini davam etdirəcək. Bu siyasət həm də xalqımızın Ümummilli Lideri Heydər Əliyev siyasətinin yaşaması və yaşadılmasını əks etdirən danılmaz faktordur.



**İranın özünü guya İslam təəssübkeşi kimi təqdim etmək istəyi özünəməxsus şəkildə olan qeyri-məntiqi davranışlarında, tərzində, axmaq təxəyyüllərində yenə də özünü göstərməkdədir. Məhz öz missiyalarına uyğun fəaliyyət göstərməyən iranlı diplomatların "arzuolunmaz şəxs" elan edilərək, ölkəmizdən çıxarılmasını Fələstin-İsrail münaqişəsinə bağlamaq, "sionistlər" və region düşmənlərinin istəklərindən imtina etmək" çağırışını Azərbaycana ünvanlamaq, hətta "diplomatik tədbirlər görüləcəyi" ilə hədə kəsmək təkcə həds izlik deyil, həm də axmaq, məntiqsiz təxəyyülün məhsulu və təzahürüdür.**

## İranın məntiqsiz təxəyyülü və QONDARMA

# "İSLAM TƏƏSSÜBKEŞLİYİ"

Sirr deyil ki, öz missiyalarına uyğun fəaliyyət göstərməyən iranlı dilomatlar Azərbaycandan çıxarılıb və bunun Fələstinə heç bir aidiyyatı ola bilməz axı. Yaxud, İsrailin bu məsələyə nə aidiyyatı ola bilər? Axı bu məsələlərin bir-biri ilə heç bir şəkildə məntiqi bağlılığı yoxdur. Molla rejiminin belə axmaq, məntiqsiz təxəyyülünə, belə uyğunsuz siyasi yanaşmasına dünyanın diplomatiya tarixində çətin ki, rast gəlinsin. Heç bundan sonra da rast gəlinəcəyinə inanmaq olmur. Üstəlik, Fələstinin özünün belə xəbər olmadan belə həds izlik etmək və Azərbaycana qarşı istifadə etmək niyyəti ilə Fələstin məsələsini ortaya atmaq ancaq molla rejiminin anormal siyasi yanaşması ola bilərdi ki, təkcə biz yox, bütün dünya bu məntiqsiz təxəyyülün, anormallığın bir daha şahidi oldu.

İsraildə səfirliyimizin açılmasına İran niyə etiraz etməlidir, yaxud buna hansısa əsası ola bilərmi? Əlbəttə ki, ola bilməz və yoxdur da. Üstəlik, Fələstinin özünün bir etirazı olmadığı halda, onun əvəzinə Azərbaycanım İsraildə səfirlik açmasına İran hansı məntiqlə etiraz edə bilər? Yaxud, İranın ölkəmizdəki şəbəkəsinin neytrallaşdırılmasına qarşı tədbirləri rəsmi Tehranı niyə narahat edir və bunu yenə də Fələstin-İsrail məsələsinə bağlamaq belə hansı məntiqə uyğundur? Dünyanın diplomatiya tarixində bu qədər absurd yanaşmanın olması və yaxud olacağı mümkünsüzdür və molla rejiminin məntiqsiz, absurd yanaşmasını ortaya qoyur. İsraildə səfirliyimizin açılmasına Fələstin etiraz etməyib və təbii ki, etiraz etməzdi də. Çünki hərhansı bir ölkədə səfirlik açmaq bizim ölkəmizin suveren hüququdur və buna hörmətlə yanaşılmalıdır, etiraz edilməli deyil. Həm də axı İsraillə yanaşı, Fələstinlə də bərabər səviyyədə əməkdaşlıq etdiyimizin Fələstin hökuməti fərqindədir. Onun da fərqindədir ki, Azərbaycan-Fələstin münasibətlərinin tarixi kifayət qədər zəngindir və yalnız son zamanlara aid deyil. Hələ ötən əsrin sonlarından, daha dəqiq desək, 1992-ci ildən ölkələrimiz arasında qurulan və hazırkı dövrə qədər davam edən diplomatik münasibətlər fonunda Azərbaycanın Fələstinə dəstək verdiyi da diqqətdən yayına bilməz. İstər Qüds məsələsində, istər Fələstinin ərazi bütövlüyünün tanınması məsələsində, istər İslam həmrəyliyi kontekstində hər kəs bunun şahididir. Üstəlik, beynəlxalq platformalarda, eyni zamanda maliyyə yardımlarında da deyilənlər öz təsdiqini tapır və təkzibedilməz faktlar Fələstin tərəfindən qiymətləndirilir. Sözsüz ki, rəsmi Bakı da ölkələrimiz arasındakı bu diplomatik əlaqələrə dəyər verir və İsraildə səfirliyimizin açılması mərasimində iştirak edən xarici işlər naziri Ceyhun Bayramovun bu mərasimin ardınca Fələstinə səfər etməsi bu dəyərin bariz nümunəsi sayılır və bütün bunların fonun Fələstinin Azərbaycanla münasibətlərini davam etdirməsi tam məntiqidir, baxmayaraq ki, bu, molla rejiminin çürük məntiqi ilə üst-üstə düşmür. Elə bu səbəbdəndir ki, İran Azərbaycana qarşı etirazını Fələstinin adından edir, özü də təkrarolunmaz və özünəməxsus məntiqsiz təxəyyülü ilə. Sözsüz ki, İranın bu məsələdə hansısa məkrli niyyəti var və belə məntiqsiz siyasi yanaşmada çirkin məqsəd də güdülür.

İranın hər şeyi "sionistlər" adı altında pərdələmək, bununla da öz çirkin əməllərinə haqq qazandırmaq niyyəti göz önündədir. Ən dəhşətlisi isə odur ki, müsəlman ölkəsi olan Azərbaycana hücumlarına dini kəsimin, İslam ölkələrinin dəstəyini qazanmaq fikrinə düşüb bu molla rejimi. Bir sözlə, İran ölkəmizə qarşı çirkin əməllərinə də, niyyətlərinə də İslam ölkələrini ortaq etmək arzusundadır. Belə bir arzunun, istəyin fonunda, üstəlik, özünü hələ "İslam təəssübkeşi" kimi göstərmək, "müsəlman müdafiəçisi" komuflyajı geyinmək həyasızlığın son həddidir. Ona görə ki, İran heç zaman "İslam təəssübkeşi", yaxud "müsəlman müdafiəçisi" olmayıb. Əksinə, İran davamlı olaraq İslam dininə aid dəyərlərə də, müsəlmanlara da məhəl qoymayıb, düşmən münasibət sərgiləyib. Təkcə biz yox, bütün dünya bunun şahidi oldu ki, istər

I Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində Ermənistan müsəlman Azərbaycanın torpaqlarını işğal edən Ermənistana dəstək verdi. İşğalçı ölkə olan Ermənistana məhz müsəlmanların yaşadıqları əraziləri işğal, talan etmək, müsəlman əhaliyə qarşı qətliyam, soyqırım törətmək üçün silah-sursatdan tutmuş, hərbi təyinatlı yardımlara qədər dəstək durağı İran özü üçün məqbul hesab edib rəva bilibsə, hansı "İslam təəssübkeşliyi", yaxid da ki, "müsəlman madafiəçisi" olduğu barədə iddialı ola bilər? Müsəlman əhalinin qırğınlara, işgəncələrə məruz qalması, öz yurd-yuvalarından qovulması, onların ev-eşiklərinin, ələlxüsus da dini mədəniyyət abidələrinin talan edilməsi üçün işğalçılara, separatçılara silah-sursat yardımı edən molla rejiminin belə bir iddiada olması belə çox absurd səslənir.

Müsəlmanların ibadət etdiyi ən müqəddəs yer olan məscidlərin sökülməsinə, müqəddəs kitabımız olan Qurani-Kərimdən olan ayələrin yazıldığı daşların bazara çıxarılaraq satılmasına qədər ermənilərin alçaq əməllərinə hər istiqamətdə dəstək vermək nə vaxtdan "İslam təəssübkeşliyi" sayılıb? Allahın ayələrinin yazıldığı daşların, eləcə də Allah evinə məxsus olanların satışına rəvac verməklə İslam dini, müsəlmanlıq arasında çox böyük uçurum var və bütün buların fonunda İranın özünü müsəlman dövləti kimi göstərməsi çox böyük bir təzaddır, eyni ilə indi də "İslam təəssübkeşliyi" iddiasında olduğu kimi.

Sirr deyil və bütün dünyaya belə artıq bəllidir ki, işğaldan öncə Azərbaycan ərazilərində, 67-ci məscid, 192-si də ziyarətgah olmaqla, İslam irsinə məxsus 403 tarixi-dini abidəyə qarşı işğalçı Ermənistan çox vəhşicəsinə davranıb və onların əksəriyyəti məhv edilib. İşğal dövründə müsəlmanların ibadət etdiyi, Allahın evi salınan 67 məsciddən 63-ü erməni separatçılatı tərəfindən tamamilə məhv edilib, qalan 4 məscid isə yararsız hala salınıb, hətta təhqir də olunub. İslam dinində ən müqəddəs yerlərdən sayılan məscidlərimizdə nümayişkəranə şəkildə donuz saxlamayan, həmin məscidləri tövlə kimi istifadə edən erməniləri dəstəkləməklə, onlara yardımlar etməklə "İslam təəssübkeşliyi", eləcə də "müsəlman müdafiəçisi" bir müstəviyə sığa bilməz axı. Azərbaycanın müsəlman əhalisi, xalqımız işğalda saxlanılan torpaqlarını, eləcə də məscidlərini işğalçılardan azad etmək üçün mübarizə apardığı 44 günlük Vətən müharibəsində də İran öz mövqeyini, daha dəqiq desək, "İslam təəssübkeşi", eləcə də "müsəlman müdafiəçisi" deyil, ermənipərəstliyini, Ermənistanın tərəfində olduğunu nümayiş etdirdi. Ermənistana silah-sursat, informasiya, kəşfiyyat dəstəyi verən, iqtisadi və siyasi yardım göstərən, müsəlman Azərbaycana qarşı, İslama qarşı təhqiramiz hərəkətlər edən bir ölkəni müdafiə edən İranın "İslam təəssübkeşi" dediyi qondarma iddiadır və hamı bilir ki, bu ölkə "müsəlman müdafiəçisi" olmayıb, ermənilərə yardımlarının davam etdiyi də göstərir ki, belə bir niyyəti belə yoxdur. Deməli, qondarma "İslam təəssübkeşi" iddiası da, "müsəlman müdafiəçisi" kimi çıxış etməsi də siyasi məqsədlər üçündür və İran İslam dinini yalnız məkrli siyasi məqsədlər, maraqları üçün alət olaraq istifadə edir, ölkəmizə qarşı da bu dini alət hesab edərək pərdələnməyə çalışır.

***İnam Hacıyev***

ŞƏRH+AKTUAL

# İsrail-İranla irimiqyaslı müharibə astanasında: nə baş verir?








Son günlər Yaxın Şərqdə cərəyan edən və bir-birini sürətlə əvəzləyən proseslər İsrailin İranla irimiqyaslı müharibə astanasında dayanması ehtimallarını artırmaqdadır. Dünyanın aparıcı konfliktorloqlarının fikrincə, ehtimalların nə qədər mümkün olması aşağıdakı məqamlara söykənir:

-İlk olaraq KİV-lərdə bildirilir ki, Pentaqonun yüksək vəzifəli təmsilçiləri İsraildən yaxın günlərdə Yaxın Şərqdə mümkün eskalasiyaların baş verəcəyi barədə konfidensial informasiya əldə ediblər. Bu, o deməkdir ki, İsrail İrandan və Tehrana bağlı proksi qruplar tərəfindən hücum ediləcəyini gözləyir.

-İkincisi, ABŞ-ın USS Florida atom sualtı qayığı Yaxın Şərq sahillərinə yaxınlaşıb və bu qərarın "regionda sabitliyə dəstək" üçün verildiyi bildirilib.

-Üçüncü diqqətçəkən ehtimal "The Wall Street Journal" nəşrində vurğulanıb. Jurnal yüksək vəzifəli amerikalı məmurların fikirlərinə istinad edərək sitat gətirir ki, onlarda İranın çox yaxın günlərdə regiona hücumlar edəcəyi ilə bağlı kəşfiyyat məlumatları var.

## SAXAL məzuniyyətləri ləğv edib - ehtiyatda olan əsgər-zabit heyətləri hərbiyə çağırılırlar

Beləliklə, onsuz da müharibə şəraitində olan Yaxın Şərqdəki vəziyyət get-gedə daha da gərginləşir və bu gərginləşmə, eləcə də yayılan məlumatlar fonunda SAXAL (İsrailin müdafiə nazirliyinə bağlı hərbi qurum) ehtiyatda olan rezervistlərin qismən çağırışına başlayıb. Burada əsasən havadan müdafiə gücləri daha çox cəlb edilməkdədirlər.

O cümlədən, İsrailin Baş qərargah rəisinin əmrinə görə, həqiqi hərbi xidmətdə olan əsgər və zabit heyətinə məzuniyyətə çıxmaq qadağası qoyulub. Bu fakt da belə qənaətə gəlməyə zəmin yaradır ki, İsrail mümkün hərbi münaqişəyə hazırlıq tədbirlərinə başlayıb.

Artıq son günlər Livan, Suriya və Qəzza sektoru tərəfindən atılan raketlər də qeyd edilənləri təsdiq edir. Üstəlik, bunlarla yanaşı şəkildə Yəhud və Samariya istiqamətlərində, İsrail ərazilərində terror aktları da həyata keçirilib. Söz yox ki, bu kimi aktların həyata keçirilməsi bilavasitə Tehran tərəfindən idarə olunur və İsrailə hücum ərəfəsində ilkin güc nümayişi göstərilir.

**Times of Israel: "Bu, İran rejiminin gözündə "böyük şeytan" Amerikaya qarşı "vahid cəbhə" mənzərəsini yaradır, eyni zamanda, İranın Amerika hədəflərinə birbaşa hücum etmək, eləcə də Livanda və Suriyada İsrailə qarşı müqavimət qərarını möhkəmləndirir"**

## İsrail KİV-i: "Tehranın məqsədi yalnız İsrailə qarşı deyil, həm də anti-Amerika quruluşu istiqamətində vahid "İslam birliyi" yaratmasından ibarətdir"

"Times of Israel" nəşri isə yazır ki, bu məqsədlə şiə ölkəsi olan İran son vaxtlar sünni məzhəbinə bağlı olan ərəb ölkələri ilə münasibətlərindəki gərginliyi azaltması yönündə siyasət yürütməyə başlayıb. Daha doğrusu, Tehranın məqsədi yalnız İsrailə qarşı deyil, həm də anti-Amerika quruluşu istiqamətində vahid "İslam birliyi" yaratmasından ibarətdir. Bu mənada, nəşr yazır ki, Çinin İranla Səudiyyə Ərəbistanı arasında münasibətlərin normallaşdırılması yönündəki vasitəçilik missiyası da buna hesablanıb. "Bu siyasət birbaşa İranın Rusiya ilə münasibətlərini dərinləşdirməsi və Türkmənistanla, Qazağıstanla, eləcə də Ermənistanla münasibətlərinin daha da istiləşməsi ilə bağlıdır. Bu, İran rejiminin gözündə "böyük şeytan" Amerikaya qarşı "vahid cəbhə" mənzərəsini yaradır, eyni zamanda, İranın Amerika hədəflərinə birbaşa hücum etmək, eləcə də Livanda və Suriyada İsrailə qarşı müqavimət qərarını möhkəmləndirir", deyə "Times of Israel" nəşri yazır.

*Rövşən RƏSULOV*



Lalə Mehralı

# Ağ günlü, ağ əppəkli olmaq

**Mən məsəllərə, atalar sözlərinə, qarğı-şa-alqışa inanan adamam. Hər uğurumda kimdənsə alqış aldığımı, hər problemimdə kimin qarğışına tuş gəldiyimi düşünürəm. Sözün hikmətinə inanıram, o sözün həyatımızdakı roluna, taleyimizə təsirinə də həmçinin. Sözlə yuvanın qurulub, sözlə yuva dağılacağını hamımız görürük. İnsan övladı bir sözlə həyatını məhv edir, bir sözlə özünü təsdiq edir, bir sözlə taleyini dəyişir, bir sözlə vəzir olur, bir sözlə rəzil.**

Təsadüfü deyil ki, bütün inanclarda Tanrının bütün yaradılışı "OL" sözü ilə yaratdığına dair məlumatlar var. Sözdə qüdrət var, hikmət var, emosiya var, çılğınlıq var, sakitlik var, qəzəb var, kin-küdurət, sevinc, həsrət, hicran, həsrət var. Var, var...

Sözlər qədər insanı dərindən yaralayan silah yoxdur, söz yarası qədər gec sağalan yara da yoxdur. Sözün verdiyi acı bütün dünyanın dərdlərinin birlikdə verdiyi acıdan ağırdır, sözün verdiyi enerji bəşəriyyətə hakim olmaqdan belə şirindir. Sözün verdiyi sevgi sevgilərin ən şirinidir, sözün verdiyi kədər yüzlərlə maşının çəkə bilməyəcəyi qədər ağırdır.

"Səni görüm min budaq ol", "hər iki cahanda üzün ağ olsun", ""heç vaxt neylim, necə edim deməyəsən", "ağ günlü, ağ əppəkli olasan" kimi tez-trez alqış eşitdiyim nənələrimin hər ikisi dünyasını dəyişəndən sonra qulağım bu sözlərə həsrətdir. Daha alqış eşitmək mümkün deyil, indi heç kim bir hərfi də boşuna istifadə etmək istəmir, ən yaxşı halda "sağ ol", "təşəkkür edirəm" kimi sözlər eşidirik.

Alqışlar bizim milli dualarımızdır. Alqışın hər kəlməsində böyük enerji var, insanda olan müsbət enerji də bu sözlə çarpazlaşdıqda yaranan enerji olduqca böyük təsir qüvvəsinə malikdir. Bu eynilə qarğışla mənfi enerjiin birləşməsinə də aiddir. İndiki elmin ağ və ya qara magiya adlandırdığı elm də əsasən sözün qüdrəti ilə var olur.

Bizim folklorda qarğış az qala alqışdan çoxdur. Bəzən deyirlər ki, bizim millət xeyirxah millətdir, heç vaxt heç kimin pisliyini istəməz, o zaman düşünürəm, görəsən bu qədər qarğış nümunələri hardan yaranıb? "Boyuna ip ölçüm", "üzünü mürdəşir yusun", "yolun gedərgəlməzə düşsün", "ətin tökülsün", "allah sənə qotur versin, dırnaq verməsin", "adın daşlara yazılsın", "südüm sənə qənim olsun", "qanın daşlara dağılsın" kimi qəribə qarğışları eşitmək bir yana, hansısa bir kitabda oxuyada belə ətim ürpərir.

Böyüklər deyir ki, ananın qarğışı övladını tutmur, çünki nəhs sözlərinin qarşısını ana ilə balanın arasında olan görünməz bağ tutur. O bağ nədir, bilirsinizmi? Ana südü! Övladını qarğayan ananın südü nə qədər müqəddəs ola bilər, otrasını izah etməkdə çətinlik çəkirəm...

Yenə böyüklərin dediyinə görə, ən təhlükəli və tez tutan qarğış ata qarğışıdır. Hətta bəlbə qarğışlar ölümlə də nəticələnə bilir. Bəşəriyyətin ilk müqəddəs kitabı olan "Avesta"da da bu barədə yazılıb. Kitabda tez-tez "Ulu Tanrı, Sən bizi ata qarğışına tuş eləmə!" söylənilir.

Bir dəfə tanınmış astroloq Səbuhi Rəhimli ilə söhbətimiz əsnasında bu məsələdən bəhs etdi. Dediyinə görə bir çox qədim mənbələrdə qeyd olunur ki, hər insanın ruhu ataya, fiziki bədəni isə anaya tabedir, əgər ana qarğış edirsə, zərbə yalnız bədənə dəyir. Bu baxımdan yol qəzası, sınıq-çıxıq, yanmaq və digər xəsarətlər baş verə bilər. Ata qarğışı isə birbaşa ruha zərər yetirir. Bunun da nəticəsi çox vaxt iki sonluqla bitir: qarğışa tuş gələn adam ya ölür, ya da havalanır (dəli olur). Yəqin elə bu səbəbdəndir ki, övlad xəsarət alanda, dara düşəndə ananın, öləndə isə atanın ürəyinə damır...

Tanrı qarşınıza dili qarğışa yox, alqışa öyrəşmiş insanları çıxarsın.

Qulaqlarınız müsbət enerjili sözlər eşitsin, həyatınız o enerji ilə dolsun.

"Söz var dağa qaldırır, söz var dağdan endirir" deməyibmi atalar?

Sizi dağa qaldıracaq sözlər eşitsin qulaqlarınız...

ANALİTİK+AKTUAL

# EUreporter: Ermənistan Ukrayna müharibəsində Rusiya və İranın yanındadır

## Ukrayna mediası da bu faktları təsdiq edir və Ermənistanın Qərbi aldatması gerçəkliyini ortaya çıxarır


eureporter
ARMENIA
Iran-Armenia-Russia: The axis against Ukraine revealed
SHARE:
PUBLISHED 1 WEEK AGO ON APRIL 2, 2023
By Guest Contributor - Opinion



Ermənistanın baş naziri Nikol Paşinyanın siyasi orinetasiyaısının qeyri-müəyyənliyi artıq Qərb mediasında da geniş müzakirə mövzusuna çevrilib. Daha dəqiq desək, Qərb və ya Avropa mətbuatı erməni baş nazirinin hələ də hansı tərəfdə dayanacağının sual altında olduğunu düşünür və bu barədə Brüsseldə dərc edilən EUreporter nəşri də yazır. Paşinyanı hədəfə alan adıçəkilən media qurumu əsasən onun Rusiyanın Ukraynaya qarşı apardığı müharibəyə dolayı yolla dəstək göstərməsindən, habelə İranla əməkdaşlığından bəhs edib. Belə ki, Avropanın, eləcə də Qərb dünyasının bu müharibədə Ukraynanın mövqeyini və ərazi bütövlüyünü dəstəkləməsinə rəğmən, özünü Qərb dəyərlərinə sadiq kimi göstərməyə cəhd edən Paşinyanın digər tərəfdən İranla əlaqələrini möhkəmləndirməsi, xüsusilə, İran istehsallı dronların və raketlərin Rusiyaya ötürülməsində baza rolunu alması təəccüb və hiddət doğurur. Çünki Ermənistanda paralel olaraq Avropa İttifaqının missiyası da fəaliyyət göstərməkdədir və belə olan vəziyyətdə həqiqətən də rəsmi İrəvanın siyasi oriyentasiyasını hansı istiqamətdə qurması suallar doğurmaqadır.

### EUreporter: "Ermənistan İranla Rusiya arasında birbaşa əlaqələrinə geniş imkanlar yaradır"

Beləliklə, EUreporter yazır: "Rusiya, İran və Ermənistan arasındakı əbədi ittifaq Ermənistanın baş naziri Nikol Paşinyanın Qərb dəyərlərinə oriyentasiya olunması ilə bağlı bəyanatlarına uyğun gəlmir".

Avropa nəşri daha bir məqamı da diqqətə çatdırır ki, bu fakt həm də görülən işlərin deyilən sözlərdən daha üstün olduğunu nümayiş etdirir. Yeni Paşinyan sözdə Qərbə meyllənməsini desə də əməldə Rusiyanın və İranın maraqlarına xidmət göstərir: "Asanlıqla yoxlanılan faktlar bilavasitə şahidlik edir ki, Rusiyanın Ukraynaya qarşı aqressiyası fonunda Ermənistan hərbi məhsullar da daxil olmaqla sanksiyalar altında düşmüş digər məhsulların təminatı məkanına çevrilib və bu təminat İranla Rusiya arasında birbaşa əlaqələrinə geniş imkanlar yaradır".

Yeri gəlmişkən, bu haqda bir müddət əvvəl Britaniya, Rumıniya, Bolqarıstan nəşrləri də geniş məqalələrlə çıxışlar edərək Ermənistanın Rusiyanın Ukraynanı istila etmək siyasətinə İranla birlikdə dəstək göstərdiyini vurğulayıblar. Eləcə də EUreporter bu haqda məqalə ilə çıxış edərək sözügedən məqamları üzə çıxarıb.

### Ukrayna mediası: "ABŞ-ın Ədliyyə, Ticarət və Xəzinədarlıq nazirliklərinin üçtərəfli notalarında Ermənistan sanksiyalar altına düşən məhsulların qanunsuz yollarla Rusiyaya və Belarusa göndərilməsində əsas meydançalardan biri olaraq göstərilir"

Eyni zamanda, həmin faktlar haqqında elə Ukrayna mediası da ətraflı məlumatları ictimailəşdirməkdədir. "Ermənistan Putinin Ukraynaya qarşı aqressiyasında əsas iqtisadi partnyora çevrilib", deyə Ukrayna mediası vurğulayır. Onlardan bir neçəsini diqqətə çatdırırıq:

Ukrayna TV-nın 5-ci kanalının saytı: "Ermənistan RF-nın Qərb sanksiyalarından yayınmasında fəal köməklik göstərir və bu da Ukraynaya qarşı aqressiyanın vüsət almasına təsirlərini göstərir. Söhbət nəinki Avropadan və Şərqi Asiyadan çatdırılan mülki məhsullara, həm də Rusiyanın hərbi sənayesinə çatdırılan avadanlıqlara da aiddir. Beləliklə, Qərbə tərəf oriyentasiya götürməsi mənzərəsini yaradan rəsmi İrəvan bu vasitə ilə həqiqətən də putinçi rejimin iştirakçısına çevrilir".

Today.ua isə qeyd edir: "Rusiyanın Ukaynaya aqressiyasında əsas iqtisadi partnyor olaraq məhz Ermənistan qalmaqda davam edir. Baş Kəşfiyyat İdarəsinin məlumatına görə, Rusiya sanksiyalar altına düşən məhsulların düşmənə ötürülməsi üçün erməni tərəfi ilə davamlı danışıqlar aparır".

Ukranews.com da bənzər informasiya ilə çıxış edib: "Ermənistan Kremllə strateji əməkdaşlığa aktivliklə qoşulur. Ermənilər yalnız düşmənə siyasi dəstək göstərmir, həm də rusiyalıların Qərb bazarlarında iştirakı yönündə vasitəçi rolunda çıxışlar edirlər".

Glavred.info yazır: "Qərb etiraf edir: Ermənistan Rusiyaya sanksiyalaşmış məhsulların ötürülməsi üçün keçid məntəqəsinə çevrilib. Və rusların özlərinin Qərbdə ticarət etmələrinə qadağanın qoyulmasına baxmayaraq, bunu onların yerinə, özü də çox uğurla ermənilər edirlər. Belə ki, ABŞ-ın Ədliyyə, Ticarət və Xəzinədarlıq nazirliklərinin üçtərəfli notalarında Ermənistan sanksiyalar altıda düşən məhsulların qanunsuz yollarla Rusiyaya və Belarusa göndərilməsində əsas meydançalardan biri olaraq göstərilir".

Fakty.ua: "Son bir ildə Moskva və İrəvan sürətlə və proporsional olmadan ölkələr arasındakı ticarət dövriyyəsini artırıblar. Erməni tərəfi Qərbin sanskiyalarına görə Rusiya üçün əlçatan olmayan məhsulların alışı, sonradan isə Rusiayaya göndərilməsi ilə məşğuldur".




Podrobnosti.ua isə yazır: " 2021-ci ildə Avropa İttifaqından Ermənistana ixrac 753 milyon avro təşkil edib, 2022-ci ildə isə bu rəqəm 1,3 milyard avroya çatıb. Bununla yanaşı, Ermənistandan Rusiyaya ixrac 2021-ci ildə 840 milyon dolları təşkil edirdisə, bu rəqəm 2022-ci ildə 2,4 milyard dollara çatıb".

Kp.ua bildirir: " Rusların Qərbdəki ötürücüləri məhz ermənilərdir. Belə ki, İrəvan Rusiya bazarı üçün elektron texnikalarının, smartfonların, həmçinin Qərb markalı avtomobillərin alınmasına köməklik göstərir".

Unian.net: " Ermənistan rus hərbi texnikasının təchizatına və təminatına yardım edir. Ermənistan son iki ili ümumilikdə götürdükdə təkcə 2022-ci ilin səkkiz ayında Avropa İttifaqında istehsal olunmuş paltaryuyan maşınları daha çox ixrac edib. Avropadakı rəsmi şəxslər artıq bəyan ediblər ki, artıq belə paltaryuyan maşınları və soyuducuları rusların Ukraynaya müdaxiləsindən sonra onların hərbi texnikalarında daşındığını müşahidə ediblər".

Gazeta.ua: "Belə götürdükdə ermənilər müvafiq əməkdaşlığı heç gizlətməyə cəhd də göstərmirlər. Axı bu ölkənin hökumət başçısının özü Nikol Paşinyan Rusiyanı Ermənistanın yaxın partnyoru və strateji müttəfiqi adlandırıb".

Beləliklə, faktlar ortadadır və bu faktlar reallıqda bir sualı doğurur - Avropa və Qərb bütün bunlardan sonra Ermənistan rəhbərliyinin onlara tərəf oriyentasiya götürməsi barədə səsləndirdiyi bəyanatlarının səmimiliyinə nə qədər inanmağa davam edəcəklər? Hər halda, bun sualın cavabının nə zamansa veriləcəyini də istisna etməməliyik. Çünki Ukraynaya qarşı hərbi müdaxilədə yalnız Rusiyanın deyil, həm də İranın da adı keçir və bu məsələdə Ermənistanın baza rolunu oynaması bütövlükdə Avropanın regional təhlükəsizliyinə ciddi və mənfi təsirlərini göstərir.

**Rövşən RƏSULOV**



# Bitməmiş tədrisin bitmiş imtahanı

**Elçin Bayramlı**

***Aprelin 9-da ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. Martın 5-də isə tam (11 illik) orta təhsil səviyyəsi üzrə imtahanlar keçirilmişdi. Yəni, demək olar ki, tədris ilinin ortasında həmin ilin yekun imtahanı!***

İmtahanların bu qaydada keçirilməsi demək olar ki, bütün valideynlər və müəllimlər, həmçinin şagirdlər arasında narazılıq doğurub. Tədris ilinin başa çatmasına 3 ay qalmış imtahan keçirilməsinin nə məntiqini, nə də məqsədini heç kim başa düşə bilmir. Bu haqda heç bir qənaətbəxş izahat da verilməyib.

Çox gülməli və qəribə işdir. Tarixdə görünməyib ki, hər hansı bir kursu, təhsil proqramını, təlimi başa vurmamış ondan imtahan götürsünlər. Bu biabırçılıq təhsilimizin başında uzun illərdir aparılan saysız-hesabsız əcaib eksperimentlərdən ən biabırçısıdır. O eksperimentlər ki, təhsilimizi tamamilə məhv edib, şagirdlərdə təhsilə, məktəbə, kitaba nifrət, repetitorluğun inkişafına stimul yaradıb, məktəbliləri və onların valideynlərini avara qoyub. Məllimlər isə bu hoqqabazlıqlardan cana yığılıblar.

Problem təkcə imtahanların anormal vaxtı ilə bağlı deyil, həm də imtahan sualları ilə bağlıdır. Əvvəla, imtahanda düşən bir çox suallar tədris proqramında olmayıb və şagirdlər bunu haradan öyrənməli olduqlarını bilmirlər. İkincisi də, sual paketinin şagirddə qalmasına imkan vermirlər. Bilirlər ki, tərtib olunan suallarda elə gülünc səhvlər var ki, ictimailəşdirilsə ölkədə rəzil olacaqlar.

İmtahandan sonra şagirdlərin çoxu məktəblərə getmir, deyirlər ki, imtahanı verdik, daha məktəbə getməyin nə mənası var. Haqlıdırlar, sən bu tədris ilinin və ya məktəb buraxılışının imtahanını artıq götürmüsənsə, bundan sonra şagirdlərə nəyi nə üçün keçəcəksən ki?

Bütün bu hoqqabazlıqların nəticəsi özünü məktəb buraxılış imtahanlarının və ali məktəblərə qəbul imtahanlarının nəticələrində əyani göstərir. Şagirdlər və abituriyentlərin böyük əksəriyyəti minimum bal yığırlar. 5 ballıq qiymətləndirmə sistemi ilə götürsək, 1-2 qiymətlər. Təsəvvür edin, 150-200 balla, yəni 2 qiymətlə ali məktəbə tələbə qəbul edirik.

Sovet dövründə 4 qiymətlə ali məktəbə çətinliklə daxil olurdular. Görün iş nə yerə gəlib ki, indi 2 qiymətlə universitetə, akademiyaya qəbul olunurlar. Bu, tam bir biabırçılıqdır və heç bir bəraəti yoxdur. Konkret olaraq, təhsili sistemi sanki məqsədli şəkildə məhv edilib, müəllim nüfuzdan salınıb, şagirdlərə özbaşınalıq hüququ tanınıb, repetitorluğun inkişafı üçün münbit şərait yaradılıb.

Dərsliklər kobud səhvlərlə doludur. Məktəb kitabxanalarının çoxu faktiki olaraq yox edilib. Uşaqların məktəb çantalarını qaldırmaq olmur, amma bu kütlə onların bilik bazasının artmasına yox, yalnız bellərinin əyilməsinə səbəb olur.

Boloniya sisteminə müəllimlər öz aralarında "koloniya sistemi" adı qoymuşdular. Bu Kurrikulum sistemi isə təhsilin məhvində son nöqtəni qoydu. "Şagirdyönümlü" təhsil proqramı adlandırılan müasir eybəcər sistem yalnız şagirdlərin beyinlərini psxitron terrora məruz qoymağa, onların dərsdən yayınması üçün hər şeyi etmələrinə yarayır. Son illərdə məktəblərdə sayı-hesabı bilinməyən biabırçı hadisələrin səbəbi də məktəblərdə tətbiq olunan bu naməlum mənşəli eybəcər sistemdir.

Mediada və sosial şəbəkələrdə yüz milyonlarla valideyn və müəllim etirazını bildirsə də, nə Elm və Təhsil Nazirliyi, nə də Dövlət İmtahan Mərkəzi təhsilin üzərində apardıqları dəllekliyi dayandırmaq fikrində deyillər, əksinə, getdikcə hoqqabazlıq növlərini daha da artırırlar.

Xüsusən də, son 20 ildə aparılan eksperimentlər təhsil sahəsini bərbad vəziyyətə qoyub, kütləvi savadsızlıq yaradıb. İndi tələbələrin sosial şəbəkələrdə yazdıqları yazılara baxdıqda, onların faktiki olaraq ibtidai təhsilinin belə olmadığını aydın görmək olur.

Bir müddət əvvəl təhsil problemlərinin müzakirə olunduğu İctimai Televiziyanın "Sabaha saxlamayaq" verilişində bu məsələləri qeyd edəndə, təhsil sektorunun rəsmiləri utanmadan mənə dedilər ki, bu yeni təhsil sistemidir. Xeyr cənablar, bu, təhsil sistemi deyil, bunun adı xəyanətdir və xalqa, ölkəyə qarşı bu xəyanəti edənlər sərt cəzalandırılmalıdır.

# "Xaricdən idarə olunan erməni dövlətçiliyi çürük vəziyyətdədir"

***Yeni Cəmiyyət İnstitutunun direktoru, rusiyalı politoloq Vasili Koltaşov "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistanın regionda yürütdüyü siyasəti, Qərb və Rusiya ilə oynadığı ikitərəfli oyunu şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Rusiyanın xarici işlər naziri Sergey Lavrovun ötən həftə Türkiyəyə səfərini regional təhlükəsizlik məsələlərinin həlli - Qarabağdakı vəziyyət, Türkiyə-Ermənistan münasibətləri, eləcə də Rusiya ilə Türkiyə arasında münasibətlərin möhkəmləndirilməsi baxımından necə qiymətləndirirsiniz? Bu sahələrdən hansında yaxın gələcəkdə irəliləyiş ola bilər?*

- Lavrovun Türkiyəyə səfəri onu göstərir ki, Rusiya hələ də Qafqazda balanslı vəziyyətə və mövcud ziddiyyətləri aradan qaldırmağa çalışır. Görünür, Türkiyə də Qafqaz regionunun yenidən müharibənin episentrinə və Qərb dövlətlərinin birmənalı olaraq axtardığı gərginlik zonasına çevrilməməsində maraqlıdır. Ona görə də ən azı indiki mərhələdə regionda vəziyyətin nisbi sakitlik şəraitində qalacağına ümid var.







*- Ermənistan rəhbərliyinin Rusiya Federasiyasına qarşı təxribat xarakterli bəyanatlarına, KTMT ətrafında yaranmış vəziyyətə, Ermənistanın Roma Əsasnaməsini qəbul etməsinə münasibətiniz necədir? Bunun İrəvan üçün sonu necə ola bilər?*

- Ermənistan rəhbərliyinin Rusiyaya və KTMT-yə qarşı sərt bəyanatları, İrəvanın Roma Əsasnaməsini qəbul etməsi və sair onu göstərir ki, bu ölkə özünü Qərbin düşərgəsində oyunçu kimi göstərsə də, hələ də böyük şahmat oyununda yalnız kiçik bir fiqurdur. Erməni xalqı Rusiyaya qarşı yönəldilib və Paşinyan bunu təbliğ etmək üçün əlindən gələni edir. ER-də baş verənlər onunla bağlıdır ki, Ermənistan cəmiyyətinin əhəmiyyətli bir hissəsi, xüsusən də zəif təhsilli hissəsi, əslində, Paşinyan rejimi tərəfindən nəyə çəkildiyini anlamır və görməkdə dünyanı erməni mərkəzli şəkildə davam edir.

*- Hansı geosiyasi şəraitdə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasını mümkün hesab edərdiniz?*

- Düşünmürəm ki, yaxın gələcəkdə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasını gözləmək olar. Əgər ingilislər, amerikalılar və fransızlar bunda maraqlı olmadığı üçün Qafqaz regionunda gərginlik yaratmasa və bunu Rusiyaya qarşı yönəltməsələr. Digər tərəfdən, Paşinyan və komandası, deyəsən, Qarabağı "erməni muxtariyyəti" və ya "müstəqil respublika" kimi dəfn etmək qərarına gəliblər. Yəni, faktiki olaraq Azərbaycanın Qarabağı tamamilə alacağına əmin olublar. Təbii ki, bu plan erməni cəmiyyəti tərəfindən başa düşülməyəcəyi üçün ictimaiyyətə səslənmir. Hesab edirəm ki, bir müddət sonra Ermənistan əhalisinin diqqətini cəlb etmədən sülh haqqında saziş bağlamaq olar. İndi Paşinyan üçün ölkə daxilində vəziyyəti nəzarətdə saxlamaq və hakimiyyətini qorumaq vacibdir. Eyni zamanda, ekspert birliyi üçün sual olaraq qalır ki, nəyə görə Ermənistan əhalisi Paşinyanı 2020-ci ildə etdiklərinə görə hələ də parça-parça etməyib?

*- Bəs siz necə düşünürsünüz - sizcə, niyə?*

- Məncə, səbəb Ermənistan cəmiyyətinin və Ermənistan dövlətçiliyinin xaricdən idarə olunan tənəzzül vəziyyətində olmasıdır. Bunu nəzərə alaraq, Paşinyan özünü təhlükəsiz hiss edir, amma o qədər də təhlükəsiz deyil ki, Qarabağı "təslim edə" və sonra Bakı ilə sülh müqaviləsi bağlaya. Lakin heç bir şübhə yoxdur ki, istənilən halda Ermənistanın Azərbaycanla sülh sazişi bağlaması Qərb dövlətlərindən asılıdır. Onlar necə qərar verirlərsə, elə də olur.

*- Son vaxtlar Ermənistanda ölkə iqtisadiyyatının guya yüksəlişdə olması ilə bağlı bəyanatlar teztez səslənir. Bu barədə nə düşünürsünüz və Ermənistan iqtisadiyyatı Qərbə tam üz tutacağı təqdirdə onun taleyi necə olacaq?*

- Ermənistan iqtisadiyyatı Rusiya bazarından hədsiz dərəcədə asılıdır. Ermənistan iqtisadiyyatı üçün əlverişli rejim belə düşünülür ki, o, kifayət qədər balanslaşdırılmış vəziyyətdə qala bilsin, Avropa İttifaqından müəyyən güzəştlər, Qərbdən müəyyən subsidiyalar alaraq, Rusiya bazarının imkanlarından istifadə etməklə inkişaf etsin. Bu, Ermənistan iqtisadiyyatının əsas problemidir- yəni, onun ikitərəfli yönümlü olması. Əgər Rusiya Ermənistandan alışı kəssə, erməni mallarını, məsələn, Azərbaycan malları ilə əvəz etsə, Ermənistan Rusiyanın iqtisadi əməkdaşlıq etdiyi ölkə sayılmasa, bu, Ermənistan iqtisadiyyatı üçün ciddi problem olacaq. Paşinyan bunu anlayır, ona görə də, onun administrasiyası üçün de-fakto əsas düşmən Azərbaycan deyil, Rusiyadır. Eyni zamanda, Moskva ona münasibətlərin erməni tərəfinə görə korlandığını göstərməkdə maraqlı deyil. Baxmayaraq ki, Paşinyanın təbliğatı Rusiyanın Ermənistana daim müəyyən resurslar verməli, onun uğrunda mübarizə aparmalı və "Böyük Ermənistan" yaratmalı olan utilitar ölkə olması ideyasını yayır. Çünki erməni tərəfinin təbliğatına görə, Rusiyanın Ermənistandan başqa müttəfiqi yoxdur. Amma Ermənistan da Rusiyanın müttəfiqi deyil...

Digər tərəfdən, Ermənistanın Qərbə tam dönüşü də mümkündür, çünki Qərb Ermənistanı Qafqazda Rusiya faktoruna qarşı oynadır, onu daim Rusiyayönümlü kimi imitasiya edir, onun Rusiyadan incidiyini göstərir. Bütün ziddiyyətlər buradan qaynaqlanır. Amma mənə elə gəlir ki, Ermənistanın Qərbə tam dönüşü baş verən kimi, əslində hərbi, siyasi və ideoloji səviyyədə çoxdan baş vermiş Rusiya-Ermənistan münasibətləri kəsiləcək. Amma indi, Donbassda ağır döyüşlərin getdiyi bir vaxtda Moskvanın özü üçün yeni gərginlik ocağı yaratmaq sərfəli deyil. Qərb isə bundan istifadə edir, çəkinmədən Qafqazda yeni gərginlik ocaqları yaradır.

***Tərcümə - Elçin Bayramlı***



Təhmasib Novruzov

# Teleyi tükdən asılı dünya...

***1970-ci illər idi. Dünya alimlərinin elmi araşdırmaları nəticəsində müəyyən edilmişdi ki, hələ o zaman Yer kürəsində mövcud olan atom-nüvə silahlarından istifadə olunarsa, planet öz oxundan çıxa və parçalanıb kainata səpələnər. Həmin illərdə böyük şairimiz Bəxtiyar Vahabzadə yazmışdı bu iki misranı:***

Bir tükdən asılıb taleyi indi,
İnsan əməlinə kaş dözə dünya!

Çalınan "həyəcan təbili"ndən narahat olan dünya dövlətləri, soyuq müharibənin tüğyan etdiyi həmin illərdə bir araya gəlib nüvə silahından birinci istifadə edilməməsi və nüvə silahlarının yayılmaması haqqında öhdəlik götürdülər. Həmin müqaviləyə məhz o zamankı SSRİ-nin rəhbərliyinin təkidi ilə, yalnız ərazisinə təhlükə yarandığı təqdirdə ölkələrin nüvə silahından istifadəsi haqqında bənd salındı. İndi Rusiya Krımı, Luqanski, Donetskini ərazisi hesab edir və müqavilədəki həmin bəndə istinad edərək qarşı tərəfi nüvə raketləri ilə hədələyir.O dövrdən bizləri əlli ilə yaxın bir zaman kəsiyi ayırır. Faciə ondadır ki, belə bir beynəlxalq öhdəliyin mövcudluğuna rəğmən ötən yarım əsr ərzində dünyada olan nüvə başlıqlı raketlərin sayı dəfələrlə artıb. Həm də o zaman bu raketlər yaxın məsafələrə uça bildiyi halda, indi onlar minlərlə kilometr uzaqlığa tuşlana və atıla bilər. Üstəgəl, o zaman yalnız bir neçə güc mərkəzi olan dövlətlər bu kütləvi qırğın silahına sahib idisə, indi nüvə silahına malik dövlətlərin də sayı artıb. İş o yerə çatıb ki, allahın fars-molla rejimi də atom silahı istehsal etmək istəyir.

Dəhşətdir, deyilmi? İkinci dünya müharibəsindən ötən on illər ərzində anamız Yer kürəsi heç vaxt indiki qədər labirinləşməmiş, indiki qədər fəlakətlə üz-üzə qalmamışdı. Qısaca diqqət edək. Avropa ölkələri ilə SSRİ-nin varisi olan Rusiya arasında mövcud olan indiki durum, faktiki Ukrayna-Rusiya deyil, NATO-Rusiya savaşı səviyyəsinə çatıb. Vəziyyət isə gündən-günə ağırlaşır və bu qanlı müharibənin tezliklə sonuclanacağına ümidlər günbəgün azalır. Beləcə, dünyanın ən qaynar nöqtəsinə çevrilmiş avropa üçüncü dünya savaşının astanasındadır. Yaxın şərqdə başlayan və bitmək bilməyən qanlı savaşlar on illərdir ki, davam edir və bu qarşıdurmaların da dünya savaşı təhlükəsinə yol açdığı danılmazdı. Çünki bu regionun yeraltı və yerüstü sərvətləri uğrunda savaşanlar da, məhz böyük güclərdir. Orta şərqdə indi İran adlanan və yenə böyük güclərin əli ilə qurulan fars-molla rejimi, qudurmuş it kimi, dörd tərəfinə hürür, hamını hədələyir, dünyanın etirazına rəğmən Rusiyanın dəstəyi ilə nüvə silahı yaratmaq üçün dəriden-qabıqdan çıxır. Uzaq şərqdə Şimali Koreya adlanan balaca bir ölkə "burda mənəm, Bağdadda kor xəlifə" deyib qardaşları Cənubi Koreyaya, Yaponiyaya, ümumən bölgəyə təhlükə törətməklə, bu regionu hər an partlaya bilən barıt çəlləyinə çevirib.Həmin ərazidə ABŞ-Çin-Tayvan adlanan daha bir barış çəlləyi də hər an partlamaq təhlükəsindədir. Afrikada, Şimali və Cənubi Amerikada, Sakit və Hind okeanları hövzəsində baş verənlər də məlumdur. Bizim üçün xüsusi narahatlıq yaradan Qafqazın da dünyada gedən bu geosiyasi savaşın mərkəzlərindən birinə çevrilməsidir ki, bunun da səbəbi Ermənistan adlanan layihə-dövlətin layihə rəhbərlərinin sözlərindən çıxmağa cürət etməməsi ilə birbaşa bağlıdır. Vaxtilə çox məşhur olan bir miniatür tamaşası var idi. Bir vəzifəli şəxsə kim nə deyirdi, hamıya "baş üstdə" deyirdi. Axırda gəlib dedilər ki, sən vəzifənin öhdəsindən gələ bilmirsən, çığırıb-bağırdı ki, mən heç yerə getmirəm, heç kim məni bu vəzifədən çıxara bilməz. Ermənistan indiki durumda həmin vəzifəli məmuru xatırladır. Dünyanın harasından, hansı güc mərkəzindən nə sifariş gəlirsə, deyir "baş üstdə". Yəni bu ölkə faktiki olaraq idarə olunmur və yeganə çıxış yolu onu dövlətçilikdən uzaqlaşdırıb, qonşularının idarəçiliyinə verməkdir ki, buna da ağaları imkan verməz.

Xülasə, dünyamız, bəlkə də bəşər tarixinin ən labirintləşmiş, ən təhlükəli dövrünü yaşamaqdadır. Məcazi mənada, dünyamız üçüncü dünya savaşına hamilədir. Bu hamiləliyi kürtac eləməyə kiminsə gücü çatacaqmı, bilmirəm. Amma onu bilirəm ki, onu kürtac eləmək vacibdi, həm də çox vacibdi. Buna gücü yetəcək qüdrətli bir "ginekoloq" lazımdır. Ya belə bir "ginekoloq" tapılıb, atası böyük güclər olan, dünyanın bətnindəki bu "yavru"nu doğulmadan məhv etməlidir, ya da ən böyük VƏTƏNİMİZ olan Yer adlanan planetin oxundan çıxıb, parçalara bölünərək kainata səpələnməsini gözləməliyik. Bunun isə yalnız başlanğıcını görə bilərik, sonrasından kimsənin xəbəri olmayacaq. Çünki artıq həyat olmayacaq ki, kimsə də, nəyisə görsün...

## De Byazi istefaya göndəriləcəkmi?



Aprel ayının ortalarında AFFA İcraiyyə Komitəsinin iclasının keçirilməsi gözlənilir. Qol.az xəbər verir ki, bu barədə AFFA-nın baş katibi Sərxan Hacıyev ATV kanalına müsahibəsində məlumat verib. Onun sözlərinə görə, müzakirə olunacaq məsələlərdən biri də məhz yığmanın nəticələridir: "Baş məşqçinin də hesabatı dinləniləcək". AFFA rəsmisi qeyd edib ki, hazırda milli komandanın baş məşqçisi Canni de Byazinin istefaya göndərilməsi gündəmdə deyil.

Xatırladaq ki, Azərbaycan millisi Canni de Byazinin rəhbərliyi altında "Avro-2024"ün seçmə mərhələsinin ilk iki matçını ağır hesabla uduzub (Avstriyaya 1:4, İsveçə 0:5 hesabı ilə).

## "Bir çox ixtisaslar, ümumiyyətlə, sıradan çıxacaq"





EKSPERT DANIŞDI

"Gələcəyin ixtisasları birbaşa olaraq qlobal həllər üzərində qurulacaq. Qlobal həll dedikdə rəqəmsallaşma yada düşür və bu ixtisaslar məhz rəqəmsallaşma ilə bağlı olacaq. Təhsil ixtisaslarını müəyyənləşdirmək müasirləşən dünyada prioritet məsələyə çevrilir. Hansı ki, dördüncü sənaye inqilabı mütləq şəkildə oturuşmuş ixtisas steriotiplərini darmadağın edəcək. Eyni zamanda burada robot süni intillekt mühəndisləri, ekologiya ilə bağlı ixtisaslar da mühüm yer tutacaq". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov bildirib.

Onun sözlərinə görə bütövlükdə yeni ixtisaslara keçid mütləq şəkildə zəruri olacaq: "Bir çox ixtisaslar var ki, onlar ümumiyyətlə sıradan çıxacaq. Fənlərarası münasibətlər də yeni ixtisasların formalaşmasında öz rolunu göstərəcək. Dövlətlər arasında olan toqquşmalar hərbi sahədə də yeni ixtisasların yaranmasına yol açacaq. Qlobal həllərə müraciət etsək, kiber ixtisasları meydana çıxacaq, hansı ki, bu ixtisaslar isə olduqca vacibdir. Proqram mühəndislərinə isə gələcək dövrdə ciddi ehtiyac olacaq. Sosial medianın inkişafı ilə bağlı yeni media ixtisasları meydana çıxacaq və bu da qlobal həllər ilə bağlıdır. Düşünürəm ki, Azərbaycan Respublikasında bu istiqamətdə müəyyən işlər görülür. Cənab Prezidentin müvafiq olaraq təsdiq etdiyi dövlət proqramları var. Bu proqramlar çərçivəsində gənclər dünyanın müxtəlif universitetlərində təhsil almağa gedirlər. Gənclərin müraciət etdiyi ixtisaslar strateji və gələcəyə istiqamətlənmiş ixtisaslardır. Əvvəlki dövrlərdən fərqli olaraq, proqnozlaşdırılır ki, bir insan ən azından beş ildən bir ixtisas yeniləməyə məcbur olacaq. Bu istiqamətdə universitetlərimiz də düşünməlidirlər. Universitetlərimiz gələcəklə bağlı çağırışlara meyilli ola bilərlər, lakin bununla bağlı onların strategiyalarının olması çox vacibdir. Universitetlər öz personalının yenilənməsi ilə bağlı strategiya müəyyən etməlidir. Hansı ki, universitet müəllimi beş ildən sonra gözlənilən istiqamət üzrə işləməyi bacarmalıdır. Universitet də bu məsələdə maraqlı olmalı və öz kadr personalının çağırışlara hazır olması istiqamətində çalışmalıdır. Lakin çox acınacaqlıdır ki, bu gün universitetləri monitorinq etsək, yeniləmə ilə bağlı demək olar ki, vəsait ayrılmadığının şahidi olarıq".

***Səbinə Hüseynli***

## Sürət həddinin azaldılması tıxacı artırır?



**"Şəhərdə yollardakı son dəyişikliyi nəzərdə tuturuqsa, sürət həddi tıxacı artırmır. Tıxacı artıran daha vacib və ciddi səbəblər var ki, onların aradan qalxması vəziyyəti həll edə bilər". Bu sözləri SİA-ya açıqlamasında Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli deyib.**

**Onun sözlərinə görə, məsələn sürət həddi 60 km/saat yolda hərəkət 50 km/saat düşübsə və əgər həqiqətən həmin o yolda 50 km/saat hərəkət sürətində normal hərəkət etmək mümkündürsə? tıxac olmaz: "Tıxac o zaman əmələ gəlir ki, hərəkət sürəti 5-10 km/saat qədər düşür. Yəni, sıxlıq yaranır və hərəkət dayanır. Sıxlıq belə, yolun hərəkət sürətinin 10 km/saat qədər yaxınlaşması nəticəsində deyilən bir fikirdir. Ona görə də yollarda hərəkət sürətinin azaldılmasının tıxaca səbəb olması yanlışdır".**

***Ayşən Vəli***

## Yataqxanadan 10 min manatlıq oğurluq olub



Abşeronda yataqxanaların birinin zirzəmisindən 10 000 manat dəyərində dəmir və plastik boru oğurlanıb. SİA-ya Daxili İşlər Nazirliyindən verilən məlumata görə, rayon Polis İdarəsi əməkdaşları daxil olan məlumata əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluqda şübhəli bilinən Daşkəsən rayon sakini, əvvəllər məhkum olunmuş Fuad Əzizov saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## "Nar" ötən il sosial layihələrə 5 milyon manatdan çox investisiya yatırıb

***Mobil operator "Nar" 2022-ci ildə müxtəlif əhəmiyyətli sosial layihələrə ayırdığı vəsaitin məbləğini açıqlayıb. Ötən il ərzində mobil operator fiziki məhdudiyyətli insanların dəstəklənməsi, elm və təhsil, eləcə də milli-mənəvi irs və vətənpərvərlik istiqamətində müxtəlif layihələrə 5 milyon AZN-dən çox vəsait yatırıb.***

"Nar" olaraq 2022-ci ildə 20-dən çox sosial layihə gerçəkləşdirdik. Bu layihələr birbaşa minlərlə insanın həyatına müsbət dəyişiklik gətirib. Bundan başqa, beynəlxalq səviyyədə qəbul edilmiş dayanıqlı inkişaf məqsədlərinə töhfə vermək üçün BMT-nin Qlobal sazişinə qoşulan ilk mobil operator olduq ki, bu da bizə sosial təşəbbüslərdə beynəlxalq təcrübədən yararlanmağa imkan verir. Cari ildə də önəmli sosial layihələrə dəstəyimizi davam etdirmək niyyətindəyik", - deyə "Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov bildirib.

Ötən il həyata keçirilən layihələrdən "Təlim Məktəbi" və "Jestdili.az" ı xüsusi vurğulamaq lazımdır. "Təlim Məktəbi" layihəsində nitq və eşitmə məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyası və maddi sərbəstliyi üçün müxtəlif peşə təlimləri tədris olunur. Bundan




başqa, "Jestdili.az" eşitmə və nitq məhdudiyyətli şəxslərin daha rahat ünsiyyətinə dəstək məqsədilə yaradılmış onlayn lüğətdir. İstifadəçilərin harada olmasından asılı olmayaraq daim faydalanma imkanı verən bu lüğətdə video, foto və təsviri mətn formasında 5 mindən çox söz toplanıb.

Həyata keçirilən layihələr ölkədə və beynəlxalq səviyyədə də yüksək qiymətləndirilib. Belə ki, "Jestdili.az" layihəsi "NETTY 2022" milli internet mükafatını qazanmış, öncəki illərdə isə "Təlim Məktəbi" layihəsi "Eventiada IPRA Golden World Awards" (Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası Qızıl Dünya Mükafatı) müsabiqəsində "Ən yaxşı sosial layihə" nominasiyasında qalib olub. "Nar"ın həyata keçirdiyi digər sosial layihələri ilə bağlı ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**